AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 İYUL 2019-cu il BAZAR № 151 (6478) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Fransa Respublikasının Prezidenti Zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident,

Fransa Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Fransa əlaqələri xoş ənənələrə malikdir. Ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və daha da möhkəmləndirilməsi istiqamətində atdığımız addımlar bu ənənələri bilavasitə zənginləşdirməkdədir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, qarşılıqlı faydalı əməkdaşlığımız özünün geniş spektri ilə səciyyələnir. Yüksək səviyyəli siyasi təmaslarımız iqtisadi və humanitar sahələrdəki birgə işimizlə müşayiət olunur.

Bütün bunlarla yanaşı, xalqımızın qarşılaşdığı ən ağrılı problem olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın qətiyyətli və obyektiv mövqeyinə, şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyul 2019-cu il.**

## "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Yalta şəhərində keçirilmiş 2007-ci il 25 may tarixli iclasında imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında" Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 may 2019-cu il.**

## "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında Saziş"in icrası ilə bağlı səlahiyyətli orqanın müəyyən edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1597-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında Saziş"in 2-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Yalta şəhərində keçirilmiş 2007-ci il 25 may tarixli iclasında imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında Saziş"i Azərbaycan Respublikası tərəfinin həyata keçirməsi ilə bağlı səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müəyyən edilsin.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişin Azərbaycan Respublikası tərəfinin həyata keçirməsi üzrə səlahiyyətli orqanın müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyun 2019-cu il.**

# Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi

## *Tərəqqiyə yüksələn 50 illik yolun (1969-2019-cu illər) sosial-iqtisadi nəticələri**



Böyük öndər Heydər Əliyevin həmin müraciətini Azərbaycan vətəndaşları ürəkdən dəstəkləmiş, xalqımızın mütləq əksəriyyəti İlham Əliyevə səs verərək 2003-cü ilin 15 oktyabrında özünə prezident seçdi. Cənab İlham Əliyev isə oktyabrın 31-də dövlətə və xalqa sədaqət andı içərkən demişdir: **"Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".** Hələ prezident seçkiləri ərəfəsindəki çıxışlarında **"Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam"** - deyərək seçicilərə müraciət edən cənab İlham Əliyev seçildikdən sonra öz vədinə əməl edərək son 16 il ərzində ulu öndərimiz Heydər Əliyevin elmi həqiqətlərə əsaslanan iqtisadi inkişaf strategiyasına və siyasi xəttinə sadiq qalaraq onun işini layiqincə davam etdirərək Azərbaycanı dünyanın ən dinamik inkişaf edən lider dövlətinə çevirməyi bacarmışdır. Cənab İlham Əliyevin özünün də haqlı olaraq dediyi kimi: **Azərbaycan heç zaman indiki kimi güclü olmamışdır. İndi Azərbaycan inkişaf, tərəqqi və sabitlik ölkəsi kimi dünyada şöhrət qazanmışdır.** Təsadüfi deyildir ki, Azərbaycan xalqı öz ümummilli liderinin siyasi kursunu dəstəkləyərək 2003-cü ilin oktyabr ayında və sonrakı 2008-ci və 2013-cü illərdə olduğu kimi, 2018-ci ilin 11 aprelində keçirilmiş prezident seçkilərində də **böyük etimad göstərərək cənab İlham Əliyevi dördüncü dəfə, bu dəfə isə daha 7 il müddətinə özünə prezident seçdi.** Prezident İlham Əliyev 18 aprel 2018-ci ildə Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş andiçmə mərasimindəki nitqində demişdir: **"Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".**

**Cənab İlham Heydər oğlu Əliyev 2003-cü ildə ölkə Prezidenti seçilərkən** - öz xalqı, ölkəsi qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də ağır vəzifənin öhdəsindən bacarıqla gələrək sahib durduğu **siyasi kursu ləyaqətlə yerinə yetirməklə malik olduğu bütün keyfiyyətlərinə görə xalqımızın alternativsiz lideri səviyyəsinə yüksəlmişdir.** Son 16 il ərzində Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin elmi əsaslara söykənən iqtisadi inkişaf strategiyasını daha da inkişaf etdirərək **Azərbaycanı dünyanın nüfuzlu dövlətləri sırasına, onun iqtisadi inkişaf səviyyəsinin isə keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsinə nail olmuşdur.** Bunun üçün Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən bir sıra qətiyyətli tədbirlər görmək; fərman və sərəncamlar imzalamaqla **ulu öndər Heydər Əliyevin apardığı siyasətini uğurla davam etdirdiyini nümayiş etdirmişdir.** Onun 2003-cü il 24 noyabr tarixli **"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında";** 2004-cü il 11 fevral tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında";** 2004-cü il 1 iyul tarixli **"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında";** 2005-ci il 11 noyabr tarixli **"Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında"** 26 oktyabr 2005-ci il tarixli **"Azərbaycan Respublikasının məşğulluq strategiyasının (2006-2015-ci illər) təsdiq edilməsi haqqında";** 2009-cu il 14 aprel tarixli **"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"** və 2014-cü il 27 fevral tarixli **"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında;** 30 oktyabr 2018-ci il tarixli **"2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının təsdiq edilməsi haqqında";** 29 yanvar 2019-cu il tarixli **"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın** təsdiq edilməsi haqqında və s. fərman və sərəncamları bu deyilənlərə əyani sübutdur.

Bu fərman və sərəncamlarda ölkəmizin iqtisadi, sosial və demoqrafik vəziyyəti sahəsində əldə edilmiş uğurlu nəticələri və müsbət meyillərin qorunub saxlanılması, onların ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsi; regionların tarazlı və üstün inkişafının təmin olunması; əhalinin normal təkrar istehsalı prosesinin təmin edilməsi, onların sağlamlığının və həyat şəraitinin yaxşılaşdırılması, əmək ehtiyatlarının, o cümlədən qaçqın və köçkünlərin məşğulluğunun artırılması ilə bağlı hökumət və dövlət orqanları qarşısında duran konkret vəzifələr və onların həyata keçirilməsi mexanizmləri verilmişdir. Bu sahədə Prezident İlham Əliyevin apardığı qətiyyətli və məqsədyönlü iqtisadi siyasətin nəticəsidir ki, ölkə iqtisadiyyatının son 15 il (2003-2018-ci illər) 3,2 dəfə, sənaye istehsalı 2,6; qeyri-neft sektoru üzrə ÜDM-un həcmi 2,8; qeyri-neft sənaye istehsalı 2,2; kənd təsərrüfatı 1,7 dəfə artmışdır. Nəticədə ölkəmizin dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq 2003-cü ildəki 1,2 milyard manatdan 2018-ci ildə 20,1 milyard manata, dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri isə 2003-cü ilə nisbətən 11,4 dəfə artaraq 2017-ci ildə 8,6 milyard manata çatmışdır. Bu dövrdə əsas kapitala yönəldilmiş vəsaitlərin məbləği 4,4 dəfə artaraq 3,8 milyard manatdan 16,8 milyard manata qalxmış, valyuta ehtiyatlarımızın həcmi isə 28,1 dəfə artaraq 2002-ci ildəki 1,6 milyard ABŞ dollarından 2018-ci ildə 45,0 milyard ABŞ dollarına çatmışdır.

**Əlamətdar haldır ki,** hazırda ölkəmizin xarici dövlət borcları ÜDM-un cəmi 20 faizini təşkil edir. Bu da **dünya miqyasında ən yaxşı göstərici hesab olunur.** İndi respublikamız xarici sərmayələrin qoyuluşu səviyyəsinə görə də MDB ölkələri arasında **lider dövlətə çevrilmiş** və son 16 il ərzində ölkə iqtisadiyyatına 260,0 milyard ABŞ dollarından artıq sərmayə yatırdılmışdır. Bütün bunların nəticəsidir ki, bu illər ərzində ölkəmizdə təqribən 2,0 milyon yeni iş yeri açılmış, onların 1,4 milyonu və ya 70,0 faizindən çoxu daimi iş yerlərinin payına düşmüş və həmin iş yerlərinin 72,0 faizindən çoxu ölkənin regionlarında yaradılmışdır. Bu dövrdə respublika iqtisadiyyatında məşğul olanların sayı 19,8 faiz və ya 787,3 min nəfər artaraq 3972,6 min nəfərdən 4759,9 min nəfərə gəlib çatmış, işsizlərin sayı 36,9 faiz və ya 148,1 min nəfər azalaraq 400,9 min nəfərdən 252,8 min nəfərə, işsizlik səviyyəsi isə 4,7 faiz bənd azalaraq 9,7 faizdən 5,0 faizə düşmüşdür. Son 15 il ərzində respublikamızda bazar münasibətlərinin formalaşması və inkişafına uyğun olaraq iqtisadiyyatın və deməli həm də **əhalinin məşğulluq quruluşunda da əhəmiyyətli dəyişiklik baş vermişdir.** Belə ki, əgər 1995-ci ildə ölkəmizin dövlət sektorunda məşğul olanların 56 faizi çalışırdısa, 2017-ci ildə bu göstərici azalaraq 24,6 faizə enmiş; qeyri-dövlət sektorunda məşğul olanların xüsusi çəkisi isə 21,4 faiz bənd artaraq 44,0 faizdən 65,4 faizə qalxmışdır. Bu isə o deməkdir ki, indi ölkəmizdə yeni iş yerlərinin yaradılması daha çox özəl sektorun inkişafından asılıdır. Ona görə də Azərbaycan dövləti bu sektorun, xüsusilə də kiçik biznesin inkişafına daha çox qayğı göstərir. Bunu ondan görmək olar ki, 2003-2017-ci illərdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 34535 sahibkara 2,1 milyard manat güzəştli kredit verilmiş və burada 154 minə yaxın yeni iş yeri açılmışdır. Həmin kreditlərin 71,6 faizi aqrar sektorun, 28,4 faizi isə digər sahələrin inkişafına yönəldilmişdir. **Son 15 ildə əldə olunmuş ən müsbət dəyişikliklərdən biri də dövlət büdcəsinin sosialyönümlü xərclərinin 10 dəfə artaraq 7,0 milyard manata, o cümlədən sosial müdafiə və sosial təminat xərclərinin 11 dəfə artaraq 2,4 milyard manata; səhiyyə xərclərinin 12,7 dəfə artaraq 55,3 milyon manatdan 704,9 milyon manata, orta aylıq əməkhaqqının 8,4 dəfə artaraq 528,2 manata çatması; yoxsulluğun səviyyəsinin isə 8,8 dəfə azalaraq 44,7 faizdən 5,4 faizə düşməsidir.** Eyni zamanda. bu illər ərzində ölkədə 3100-dən çox məktəb, 640-dan çox xəstəxana inşa edilmiş və təmir olunmuşdur. Təkcə 2008-ci ildə 5903 məcburi köçkün ailəsinə yeni evlər, mənzillər verilmişdir ki, bu da son illər ərzində ən rekord göstəricidir. Həmin il şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilmişdir.

**(davamı 4-cü səhifədə)**

*(əvvəli 10 və 13 iyul tarixli saylarımızda)*

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4, 25, 27, 28, 29, 30 noyabr, 1, 2 dekabr 2018-ci il, 11 yanvar, 5, 6, 7 və 9 iyul 2019-cu il tarixli saylarımızda)*

### 31 dekabr 2018-ci il

- **Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki.**

### 2 yanvar 2019-cu il

- **Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə:** Maqnitoqorskda baş vermiş faciə ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

### 3 yanvar 2019-cu il

- **Prezident İlham Əliyev Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib.**



- **Azərbaycanın pravoslav xristian icmasına:** Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 10 yanvar 2019-cu il

- **Prezident İlham Əliyev yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olub.**

### 11 yanvar 2019-cu il

- **Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib:** Prezident İlham Əliyevin giriş nitqi.
- **Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib:** Prezident İlham Əliyevin yekun nitqi.

### 14 yanvar 2019-cu il

- **Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının baş katibini qəbul edib.**
- **Prezident İlham Əliyev Qaradağ rayonunun Qobustan qəsəbəsində yeni inşa olunan xəstəxananın açılışında iştirak edib.**

### 15 yanvar 2019-cu il

- **Prezident İlham Əliyev Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.**



### 16 yanvar 2019-cu il

- **Prezident İlham Əliyev Sumqayıtda "SOCAR karbamid" zavodunun açılışında iştirak edib: Prezident İlham Əliyevin çıxışı.**
- **Prezident İlham Əliyev İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

### 19 yanvar 2019-cu il

- **Zimbabve Respublikasının Prezidenti Emmerson Mnanqaqvanın Azərbaycana işgüzar səfəri: Azərbaycan və Zimbabve prezidentlərinin işgüzar görüşü olub.**

*(davamı növbəti saylarımızda)*

# Kral Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycanın xarici siyasət prioritetləri barədə danışılıb

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmizin Böyük Britaniyadakı səfirliyinin təşəbbüsü ilə Londonda, dünyanın ən qabaqcıl beyin mərkəzlərindən biri olan Kral Beynəlxalq Münasibətlər İnstitutunda (Chatham House) "Yeni reallıqlar altında Azərbaycanın xarici siyasət prioritetləri" mövzusunda çıxış edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Azərbaycan diplomatiyasının 100 illiyinin böyük təntənə ilə keçirildiyini bildirən Hikmət Hacıyev Azərbaycanın bugünkü xarici siyasətini formalaşdıran amillər və ölkəmizin xarici siyasət prioritetləri barədə qonaqlara məlumat verib. Ölkəmizin xarici siyasətdə kənarlaşdırıcı deyil, inklüziv yanaşmanı rəhbər tutduğunu bildirən H.Hacıyev bu gün Azərbaycanın dünya dövlətləri ilə balanslaşdırılmış və faydalı münasibətlərinin olduğunu nəzərə çatdırıb.



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri qeyd edib ki, təbii sərvətlərə malik olan ölkələrin heç də hamısı Azərbaycan qədər müvəffəqiyyətli olmur və bu mənada ölkəmiz inkişaf etməkdə olan ölkələr üçün model təşkil edir.

Şöbə müdiri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycanın xarici siyasətinin ən əsas hədəfi olduğunu bildirib və auditoriyaya sülh danışıqlarının son vəziyyəti barədə məlumat verib. O, yalnız ədalətli sülhün dayanıqlı sülh olduğunu nəzərə çatdıraraq əlavə edib ki, Azərbaycan substantiv danışıqlar deyərkən Ermənistanın qoşunlarının işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasını və işğala son qoyulmasını nəzərdə tutur. H.Hacıyev Ermənistanı işğal siyasətindən əl çəkməyə və regional inteqrasiyadan maksimum faydalanmağa çağırıb.

Daha sonra H.Hacıyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın beynəlxalq tərəfdaşlıqları, qonşu ölkələrlə münasibətləri, Avropa İttifaqı və Azərbaycan arasında tərəfdaşlıq sənədinin razılaşdırılması ilə bağlı hazırkı vəziyyət, ölkəmizin Şərq Tərəfdaşlığındakı rolu, onun inkişaf etməkdə olan ölkələrlə diplomatik münasibətlərinin perspektivləri, habelə Brexit-dən sonra Azərbaycan və Böyük Britaniya arasında münasibətlər, "Bir kəmər, bir yol" təşəbbüsü və sair barədə sualları cavablandırıb.

**AZƏRTAC**

# Prezident Administrasiyasının şöbə müdiri Böyük Britaniyanın Müdafiə Tədqiqatları üzrə Kraliyyət Kollecində olub

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniyanın Müdafiə Tədqiqatları üzrə Kraliyyət Kollecinin (RCDS) rəis əvəzi və Durham Universitetinin professoru Deyvid Eleri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə və Silahlı Qüvvələrimizin bu ölkədəki hərbi attaşesi də iştirak ediblər.

Görüş zamanı D.Eleri kollecin tarixi və hazırkı fəaliyyəti barədə ətraflı məlumat verib, həmçinin Azərbaycanın Müdafiə Nazirliyi ilə həyata keçirilən hərbi təhsil əməkdaşlığından bəhs edib. Rəhbərlik etdiyi dinləyici qrupunun Azərbaycana faydalı və informativ səfərini məmnuniyyətlə dilə gətirən professor, eyni zamanda, kollecdə təhsil alan azərbaycanlı zabitlərin göstərdiyi nəticələrdən razı qaldıqlarını bildirib. O, Hikmət Hacıyevin bu ziyarətinin ikitərəfli hərbi münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Daha sonra, D.Eleri ADA Universiteti ilə Durham Universitetinin gələcəkdə kadr hazırlığı və digər sahələrdə əməkdaşlığını özündə ehtiva edən anlaşma memorandumu layihəsinə hazırda Durhamda baxıldığını, məsələ ilə bağlı müsbət nəticəni cari ilin sonunadək gözlədiklərini diqqətə çatdırıb.

H.Hacıyev iki ölkə arasındakı əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində uğurlarından bəhs edərək bu əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib. Görüşdə, həmçinin ölkəmizdə aparılan islahatlar çərçivəsində RCDS ilə Azərbaycanın Xarici İşlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının Strateji Elmi Tədqiqatlar Mərkəzi arasında kadr hazırlığı sahəsində mümkün gələcək əməkdaşlıq imkanları müzakirə mövzularından biri olub.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**AZƏRTAC**

# BP ilə bərpaolunan enerji üzrə əməkdaşlığa dair müzakirələr aparılıb

**Energetika naziri Pərviz Şahbazov BP-nin Qlobal Apstrim Regionlar üzrə əsas əməliyyatçısı Uilliam Lin, eləcə də şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzun daxil olduğu nümayəndə heyəti ilə görüşüb.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazirlik ilə BP arasında bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi üçün birlikdə potensial imkanları araşdırmaq məqsədilə imzalanmış anlaşma memorandumundan irəli gələn məsələlər müzakirə edilib.

P.Şahbazov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin "Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Sərəncamında bərpaolunan enerji mənbələrindən istifadənin təşviqi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi ayrıca bir istiqamət kimi vurğulanır. Bu Sərəncamla müəyyən edilmiş hədəflərə nail olunması və bərpaolunan enerji sahəsinin inkişafında BP ilə əməkdaşlıq mühüm rol oynayacaq.

U.Lin də Azərbaycanla enerji sahəsində uzunmüddətli əməkdaşlıqdan və bərpaolunan enerji mənbələrindən istifadə üzrə də BP ilə əməkdaşlığa dəyər verilməsindən məmnunluğunu ifadə edib.

Görüşdə BP-nin ölkəmizdə həm günəş, həm də külək enerjisi sahəsində layihələrin həyata keçirilməsində maraqlı olduğu qeyd edilib. Bildirilib ki, gələcəkdə BP-nin iştirakı ilə həyata keçiriləcək layihələr Azərbaycanın enerji balansında bərpaolunan enerjinin payının artmasına, eləcə də dayanıqlı inkişafa töhfə verəcək.

**AZƏRTAC**

# Ümummilli Liderin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə Ağdamda konsert olub





**Müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə Ağdam rayonunun Quzanlı qəsəbəsində konsert keçirilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü, Beynəlxalq Muğam Mərkəzinin, Ağdam Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunan konsertdə məcburi köçkünlər, Ağdam rayonunun sakinləri, N saylı hərbi hissənin əsgər və zabitləri iştirak ediblər.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı müstəsna xidmətlərindən söz açıb, onun respublikaya ilk dəfə rəhbərlik etdiyi dövrdə bugünkü müstəqilliyimiz üçün mühüm iqtisadi və mənəvi potensialın yaradıldığını bildirib. Qeyd edilib ki, məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırıldığı və təqiblərə məruz qaldığı dövrdə Qarabağda erməni separatizmi baş qaldırıb, Ermənistan ərazi iddiaları irəli sürərək hərbi təcavüzə əl atıb. Müstəqil dövlətçiliyimizin xilası və xalqımızın üzləşdiyi bəlalardan qurtulması onun yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtması sayəsində mümkün olub.

Diqqətə çatdırılıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yurd-yuvasını tərk etmiş qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində sistemli dövlət siyasətinin əsası da ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasət müasir dövrdə daha da zənginləşdirilərək Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasını və məşğulluğunun artırılması üçün ardıcıl olaraq kompleks tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan insanlar üçün indiyədək bütün zəruri infrastruktur obyektləri ilə təchiz edilmiş 104 qəsəbə tikilib istifadəyə verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyeva hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı işlərin sürətləndirilməsinə dair verdiyi tapşırığın icrasını şəxsən nəzarətdə saxlayır və bu sahədə işlər ardıcıllıqla davam etdirilir.

Sonra respublikamızın tanınmış incəsənət ustaları ağdamlılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər. Konsertdə əsasən, xalq mahnıları, muğam və təsniflər ifa olunub.

**AZƏRTAC**

# Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın növbəti iclası

**Dövlət Neft Fondunda vətəndaş cəmiyyətinin, ölkədə fəaliyyət göstərən yerli və xarici hasilat şirkətlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiyanın növbəti iclası keçirilib.**

İclasda 2018-2019-cu illəri əhatə edən ümumiləşdirilmiş HSŞ hesabatının hazırlanması məqsədilə HSŞ üzrə Komissiyanın Xidmət Təklifləri Sorğusu yolu ilə elan etdiyi satınalma müsabiqəsində iştirak edən müstəqil və ixtisaslaşmış auditor təşkilatlarının texniki və ixtisas göstəriciləri ilə bağlı İşçi qrup tərəfindən hazırlanan rəy Komissiya üzvlərinə təqdim edilib. Müsabiqədə iştirak edən audit şirkətlərinin qapalı zərfdə təqdim etdikləri qiymət təklifləri açıldıqdan sonra İşçi qrupun rəyi də nəzərə alınmaqla müvafiq hesabatın hazırlanması məqsədilə "Grant Thornton" şirkəti ən yüksək balla qalib elan olunub. Qeyd edək ki, keçirilən müsabiqədə "Grant Thornton" (I yer), "Baker Tilly" (II yer), "BDO Azərbaycan" (III yer), "Nexia-EA MMC" və "Abak-Az Crovve Ltd" audit şirkətləri iştirak etmişdir.

2018-ci il üzrə HSŞ hesabatlarının əhatə dairəsi və həmçinin hesabatlılıq formaları iclasda müzakirə edilərək təsdiq edilmiş, Benefisiar Sahiblik məlumatlarının açıqlanmasına dair Yol xəritəsinin tətbiqi layihəsinin gedişatı və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Dövlət Neft Fondunun İctimaiyyətlə əlaqələr departamenti.**

# İyun ayında gündəlik neft hasilatı 768 min barel olub

Respublikada iyun ayı üzrə gündəlik neft hasilatı 768 min barel olub. Bunun 695 min barelini xam neft, 73 min barelini kondensat təşkil edib. Gündəlik 471 min barel xam neft, 72 min barel kondensat, 19,2 min barel isə neft məhsulları ixrac edilib.

Gündəlik neft hasilatının 776 min barel həcmində saxlanılmasına dair razılaşma çərçivəsində Azərbaycan hasilatı sutkada 20 min barel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib. Qeyd edək ki, cari ilin yanvar-iyun aylarında orta gündəlik neft hasilatı 771 min barel təşkil edib.

Energetika Nazirliyi iyun ayında gündəlik neft hasilatı ilə bağlı məlumatları OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

2018-ci ilin dekabrın 7-də "OPEC plus" üzrə neft hasilatının gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı imzalanmış "Əməkdaşlıq Bəyannaməsi"nin müddəti cari ilin 1 iyul tarixindən 2020-ci ilin I rübünün sonunadək uzadılıb.

**"Respublika".**

# Ümummilli liderin iqtisadi inkişaf konsepsiyası və Bakı Metropoliteni







**Ulu öndərin hakimiyyətə gəlişindən 50 il ötür. Bu elə bir tarixdir ki, sadəcə, böyük yüksəliş çiçəklənmə illəri deyil, bu həm də Azərbaycanın saysız-hesabsız direniş, özünütəsdiq, düşmən qüvvələrin məkrlərinin qarşısının alınaraq, oyanış və artıq əbədi olacağına heç bir şübhə qalmayan azad, müstəqil bir ölkənin yüksəliş tarixidir. Və bu tarixin memarı Heydər Əliyev şəxsiyyətidir.**

O illərin tarixinə qısa nəzər salsaq, İkinci Dünya müharibəsinin SSRİ adlı nəhəng bir ölkəyə vurduğu ağır yaraların tədricən sağaldığı, bərpa dövrünün əsas vəzifələrinin yerinə yetirildiyi ötən əsrin 60-cı illərində bütün müttəfiq respublikalarda iqtisadi inkişafın yeni bir mərhələsi başladı. Ölkənin hər yerində olduğu kimi, Azərbaycanda da böyük quruculuq işləri gedirdi. XX əsrin 50-60-cı illərində Azərbaycan sənayesinin inkişafı, sahə və ərazi quruluşunun təkmilləşməsi sahəsində mühüm irəliləyişlər baş vermişdi. Azərbaycan sənayesinin inkişafında mühüm rol oynayan Sumqayıt Boruyayma, Alüminium və Sintez-Kauçuk zavodları, Daşkəsən Filiz Saflaşdırma Kombinatı, Mingəçevir Su-Elektrik Stansiyası və sairə iri müəssisələr tikilib istifadəyə verilmişdi. Ağır sənayenin, energetika, kimya və neft-kimya, neft emalı, qara və əlvan metallurgiya, cihazqayırma və elektrotexnika kimi sahələrin geniş inkişafının əsası qoyuldu. Bununla belə, 1960-cı illərin sonu bir sıra obyektiv və subyektiv səbəblərə görə həm sənayedə, həm də kənd təsərrüfatında inkişafın sürəti orta ittifaq göstəriciləri ilə müqayisədə geri qalırdı və bu gerilik ildən-ilə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu.

Yaranmış bu vəziyyət çox tezliklə respublikada ciddi dəyişikliklərə ehtiyacın olduğundan xəbər verirdi. Nəhayət, belə bir dəyişiklik 1969-cu ilin iyul ayının 14-də baş verdi. Azərbaycana rəhbərliyinin ilk illərində sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmağın proqramını müəyyən edib, onun reallaşdırılması üçün zəruri olan ən vacib məsələlərin həlli barədə Sov. İKP MK səviyyəsində əlverişli qərarların qəbul edilməsinə nail oldu.

Nəticədə, 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Sovet Azərbaycanının sənaye və kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edildi və həmin illər respublikamızın tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Həmin dövrdə yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. İstehsal olunan məhsulların keyfiyyəti əvvəlki illərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.



1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi.

XX yüzilliyin 70-ci illərində Azərbaycanda milli azadlıq hərəkatı yeni mərhələyə - yüksəliş mərhələsinə qədəm qoydu.

Beləliklə, Heydər Əliyevin doğma xalqı qarşısında ən böyük xidmətlərindən biri də bu idi ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Bu gün Avropa ilə Asiya, Rusiya ilə Yaxın və Orta Şərq ölkələri arasında Qızıl körpü rolu oynayan Azərbaycanın azad yaşaması, getdikcə güclənməsi Azərbaycanı dünya miqyasında çox qüdrətli beynəlxalq qüvvələrin mənafelərinin çarpazlaşdığı areallardan birinə çevirdi. Zəngin yeraltı və yerüstü sərvətlərə malik olan müstəqil Azərbaycana qarşı siyasi, hərbi, iqtisadi, mənəvi təzyiqlər ara verməк bilmir. Son dərəcə məkrli düşmənlərin Azərbaycan xalqına qarşı yüzillərlə sınaqdan çıxarmış olduqları "erməni kartı"ndan heç zaman indiki qədər fəal və geniş miqyasda istifadə olunmayıb.

Bu inkişaf Azərbaycanın daxili və xarici düşmənlərini çox narahat edirdi. Bu qüvvələr üçün məsələnin daha çox xoşagəlməyən cəhəti o idi ki, bunca ağır problemləri olan Azərbaycanın belə yüksək inkişafının başlıca səbəbi xalqın başında qüdrətli bir siyasətçinin durması idi. Heydər Əliyev düşmənlərin min bir hiyləsindən baş çıxarır, onun siyasi dühası zamanın bütün gərdişlərini qabaqlayır, ən məkrli siyasi oyunların arxasında nələrin baş verdiyini ovcunun içi kimi görürdü.

Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi birinci dövrlə ikinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəri idi. Xüsusilə, Azərbaycanın tarixinin 1990-1993-cü illəri xalqın yaddaşında ən ağır fəlakət illəri, "olum, ya ölüm" dövrü kimi qaldı. 1990-cı il 20 Yanvar qırğınının ertəsi günü həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib, doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının qurtuluş mübarizəsinin önünə keçdi.

1993-cü ilin iyununda - Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çapalayırdı. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı - dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Prezident Heydər Əliyevin qədirbilən xalqımız, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Bu 50 ilin şəhər ictimai sərnişindaşıma sektorunda nümunəvi xidmət göstərən Bakı metropoliteni tarixində də özünəməxsus izi və yeri var. Elə bu səbəbdəndir ki, yarıməsrlik tarixi formalaşmış metropolitençi ordusu məhz bu dahi şəxsiyyəti xüsusi hörmət və ehtiramla anır. "Metropoliten" deyərkən, onun şəhərimizin əsas nəqliyyat arteriyasına çevrilməsində məhz Heydər Əliyev şəxsiyyətinin danılmaz xidmətləri, səyi, zəhməti, əziyyəti düşünülür.

**"Metropoliten öz quruluşuna görə, xidmət imkanlarına görə - hər şeyə görə digər nəqliyyat növlərindən fərqlənir və ən sevimli nəqliyyat vasitəsidir"** deyən bu görkəmli şəxsiyyətin ölkəyə rəhbərliyi dövründəki fəaliyyətində Bakı metropoliteni xüsusi bir mövzudur. Bakıda metronun tikintisi ilk dövrlərdən başlayaraq ulu öndərin nəzarəti altında olub. O, hələ Azərbaycanda Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövrdə Bakı metrosunun tikintisi onun nəzarətində idi. O, sonrakı onillikləri əyani görür və Bakıda metro tikintisinin əhəmiyyətinə xüsusi önəm verir və diqqətlə yanaşırdı. Mərkəzi Komitənin Birinci katibi kimi işə başladıqdan sonra isə metro tikintisi qarşısındakı öhdəlikləri qəti surətdə müəyyən edildi.

O dövrdə onun Azərbaycan rəhbəri kimi böyük fədakarlığı, SSRİ rəhbərliyinə daim sinə gərən qətiyyəti olmasaydı, Bakı metrosu kişik, ekzotik nəqliyyat olaraq qalacaqdı: bax, beləcə, onun Azərbaycana ilk rəhbərliyi dövründə əsas yaşayış rayonlarına çevrilən ərazilərdə metronun əhəmiyyətli bir hissəsi inşa olundu. Həmin vaxt metronun birinci növbəsinin ikinci buraxılış sahəsində - "28 May"dan "Nizami" stansiyası istiqamətində işlər başlamışdı. Lakin bu sahədə qarşıya çıxan çətinliklər, inşaatçıların planında dəyişikliklərə səbəb oldu. Heydər Əliyev müdrik rəhbər kimi perspektivi, şəhərin inkişaf istiqamətlərini dəqiq bildiyindən əsas qüvvələri "Nərimanov" stansiyasından sonra başlayan üçüncü buraxılış sahəsində cəmləşdirdi. Cəmi iki ilə yaxın bir müddətdə "Ulduz" stansiyası istifadəyə verildi. Bu, Heydər Əliyevin respublika rəhbəri kimi açılışında iştirak etdiyi ilk stansiya idi. 1970-ci il aprelin 17-də keçirilən mitinqə toplaşan Bakı sakinlərini salamlayan Heydər Əliyev inşaatçıların işinə böyük qiymət verdi, onlara minnətdarlığını bildirdi.

Tikinti sahəsində işlər gündən-günə sürətini artırırdı. Metro xətti böyük sənaye rayonunun altında yerləşən "Ulduz" stansiyasından 8-ci kilometr yaşayış sahəsinə doğru irəliləyirdi. 1972-ci ilin noyabrın 6-da 3 stansiya - "Məşədi Əzizbəyov" ("Koroğlu"), "Avrora" ("Qara Qarayev"), "Neftçilər", 1976-cı ildə "Nizami", 1979-cu ildə "Bakmil" stansiyaları ilk sərnişinlərini qəbul etdi.

1982-ci ildə Azərbaycan üçün tarixi əhəmiyyətli bir hadisə də baş verdi. Heydər Əliyev Moskvada yüksək dövlət vəzifəsinə - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Onun Azərbaycana diqqət və qayğısının bariz nümunəsi elə Bakı metropoliteni idi. Bu barədə Heydər Əliyevin öz xatirələrini yada salmaq yerinə düşər: **"Azərbaycana 14 il rəhbərlik etdiyim zaman, sonra 5 il Moskvada Sovetlər İttifaqının rəhbərliyində olduğum zaman mən Bakıda metro tikintisi ilə daim məşğul olmuşam və bu işə nail olmuşam. Buna görə də özümü xoşbəxt hiss edirəm".**

SSRİ kimi nəhəng bir ölkənin ali rəhbərləri sırasında yer aldığı illərdə onun liderlik xarakteri və Bakı metrosuna xüsusi sevgisi olmasaydı, böyüyən bir nəqliyyatdan söz açmaq olmazdı. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, dünyanın altıda bir hissəsində 19 müxtəlif sahənin məsuliyyət yükünü çiyinlərində daşıdığı bir vaxtda o, Bakı metropoliteninin inkişafı üçün bədxahlarından çəkinmədən nüfuzunu, gücünü buna sərf etdi: tikinti materiallarının qıtlığı yaşanan o illərdə, əzab-əziyyətli inşaat sahəsinə çevrilən "Nizami" stansiyasından "Memar Əcəmi"yə qədər olan mənzillərin tunelləri və 4 stansiyası belə ərsəyə gəldi. Yasamalın, mikrorayonların yolunu asanlaşdırdı, "Xalqlar dostluğu" və "Əhmədli" stansiyaları isə şəhərin metro coğrafiyasını genişləndirdi. Bir sözlə, Heydər Əliyev Moskvada işlədiyi illərdə metronun "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar", "Memar Əcəmi" (1985), "Xalqlar dostluğu" və "Əhmədli" (1989) stansiyaları, "28 May-Cəfər Cabbarlı" keçid qovşağı (1993) istifadəyə verildi.

Ümumən, ulu öndərin Azərbaycana rəhbərlik etməyə başladığı dövrdə metronun cəmi 6 stansiyası və 8,8 kilometr xətti var idisə, sonrakı dövrdə yeraltı saraylar şəhərimiz iki dəfədən də artıq böyüdü: 21,1 kilometr xətt və 14 yeni stansiya inşa edildi.

Müstəqilliyimizin ilk dövründəki bütün ölkəni bürüyən böhrandan metronun kiçik itkilərlə çıxmasında da Heydər Əliyevin danılmaz rolu olub. Sovet məkanı dağılandan sonra bu nəqliyyatın şəhərimiz üçün əhəmiyyətini dərk etməyənlər ona ögey münasibət bəslədiyi bir dövrdə yenidən müstəqil Azərbaycanın onurğa sütununu yaşadan bir rəhbər kimi o, yenidən əlini metroya uzatdı. Müstəqilliyin əzablı ilk illərində - pərən-pərən salınmaqda olan bir ölkədə ən ağır zərbələrdən birini metropoliten də alırdı. Bu gün isə böyük minnətdarlıq və təşəkkür hissi ilə ulu öndərin fədakarlığından, metronun vaqon parkının gücləndirilməsinə, maddi-texniki bazasının qorunub saxlanılmasına çəkdiyi zəhmətdən söhbət açırıq. Bu, elə də unudulması mümkün olan uzaq keçmiş deyil və yaxın illərimizin tarixi kimi bir çoxumuzun gözləri önündə baş verən hadisələrdir. Elə bu zalda o illəri çox yaxşı xatırlayan fədakar metropolitençilər də az deyil.

Xüsusən, metronun maddi-texniki bazasının möhkəmləndirilməsi, vaqon parkının yeniləşməsi Onun Moskvada yüksək vəzifədə işlədiyi illərdə qazandığı nüfuz və hörmətin nəticəsi idi. Moskvanın Mıtişşi "Metrovaqonmaş" Səhmdar Cəmiyyətinin rəhbərliyi Bakı metropoliteni üçün o vaxt qüvvədə olan qiymətlərdən aşağı qiymətə vaqon satmağa razı olmuşdu. Bundan əlavə, Moskva metropolitençiləri metromuzu çətin vəziyyətdən çıxarmaq üçün bakılı həmkarlarını mütəmadi olaraq saysız-hesabsız ehtiyat hissələrilə təmin edirdi.

Onun nüfuzu tək bu nümunə ilə kifayətlənmir. Məhz Heydər Əliyevin nüfuzu sayəsində "Həzi Aslanov" stansiyasının inşasına Avropa İttifaqı maliyyə yardımı göstərdi. Beləcə, metro yeni inkişafın təməl mərhələsinə gəlib çatdı.

Bu gün fəxrlə şəhərimizin simasını müəyyən edən rəmzlərdən biri kimi metropolitenin memarlıq üslubundan bəhs edirik. "Nizami" kimi əsrarəngiz sənət incisi ilə yanaşı, Sovet dövrünə xas eynitipli stansiyalarda belə milli memarlıq üslubu elementlərinə məhz onun böyük təşviqi yol açmışdı.

2002-ci ildə Bakı metropoliteninin 35 illik yubileyində çıxış edərkən ulu öndərin metronun inkişafı, gələcəyi ilə bağlı **"Məndə hələ o illərdən metronun tikintisinin birinci, ikinci, üçüncü növbələrinin cədvəli var. Onu o vaxtdan saxlamışam. İndi onları təzələyəcəyik. Bakı metrosunun inşasının davam etdirilməsi üçün mütləq istifadə etmək lazımdır. Mən bunu edəcəyəm və güman edirəm ki, məndən sonra gələn insanlar da bunu mütləq etməlidirlər"** deyən ulu öndərin müəyyən etdiyi iqtisadi-siyasi konsepsiya sayəsində 2000-ci illər Bakı metropoliteninin yeni inkişaf mərhələsini müəyyən edib.

Bu gün ümummilli liderin kursunu layiqincə davam etdirərək onu yeni mərhələyə çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev metronun gələcək konsepsiyasını dünyanın ən yüksək tələbləri səviyyəsində müəyyən edib və bu gün Bakı metropoliteni həmin istiqamətə doğru addımlayır. **"Metroda görüləcək işlər çox olacaqdır. Bu, Bakıda yaxın illərdə həyata keçiriləcək ən əsas infrastruktur layihələrindən biri olacaqdır"** deyən Prezident İlham Əliyevin təsdiq etdiyi konseptual inkişaf sxeminə uyğun olaraq gələcəkdə Bakı metropoliteni 119.1 kilometr xətləri və 76 stansiyanı əhatə edəcək və şəhərimizin aparıcı nəqliyyat vasitəsi kimi mövqeyini qoruyacaq. Ötən illərdə "Nəsimi" (2008), "Azadlıq prospekti" (2009), "Dərnəgül" (2011) stansiyaları istismara verilib, "28 May", "Elmlər Akademiyası" kimi dərin özüllü birçıxışlı stansiyaların ikinci çıxışları açılıb və bu da həmin stansiyalardan istifadə edən on minlərlə sərnişinin rahatlığı və təhlükəsizliyinin ən yüksək səviyyəyə çatdırılmasında əhəmiyyətli rol oynayıb.








Bu illərdə yeni inkişaf tarixinin ən əhəmiyyətli hadisəsi baş verib. Ən müasir dünya standartlarının tətbiq edildiyi və müstəqillik tarixinin ilk xətti olan Bənövşəyi xəttin iki stansiyası ("Avtovağzal" və "Memar Əcəmi") 2016-cı ildə istismara verilib. 2014-cü il metropolitenin inkişafında xüsusi yer tutur. Dövlət başçısının Sərəncamı ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyəti yaradılıb. Səhmdar Cəmiyyətin yaranmasından ötən 5 il ərzində paytaxtın yeraltı sərnişin konveyeri böyük yeniliklər, texnologiyalar, quruculuq meydanına çevrilib. Bu isə sərnişin təhlükəsizliyi və rahatlığını daha da gücləndirməklə, metropolitenin inkişafına yeni nəfəs gətirib və ən əsası, ən müasir texnologiyaların tətbiqi istiqamətində mühüm yeniliklər edilib. Gələcəkdə də qorunacaq bu tendensiya Bakı metrosunu həm də yeniləşmiş siması və texniki imkanları ilə şəhərin əsas nəqliyyat arteriyası statusunu möhkəmlədəcək və Heydər Əliyevin metropolitenə verdiyi dəyər daim qüvvəsində qalacaq: **"Vətəndaşlarımız, ümumiyyətlə, xalqımız bilməlidir ki, bizim millətimizin əlində nə kimi böyük və nadir bir sərvət var. Bu sərvət müstəqil Azərbaycan dövlətinə yaxın keçmişimizdən miras qalıbdır. Ancaq eyni zamanda, bu sərvət Azərbaycan xalqının zəhmətkeş insanlarının böyük əməyi, əzmi nəticəsində yaranıbdır və belə bir möcüzəli şəkil alıbdır. Ona görə Bakı metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətlərindən biridir".**

**Tərlan DADAŞOV,**
**"Bakı Metropoliteni" QSC-nin**
**İnsan resursları və xidmət departamentinin rəisi.**

# Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi

## *Tərəqqiyə yüksələn 50 illik yolun (1969-2019-cu illər) sosial-iqtisadi nəticələri*

**(əvvəli 1-ci səhifədə)**

Bu il, yəni 2019-cu ildə isə onlara 800-ə yaxın mənzil verilməsi və köçkünlər üçün yeni şəhərciklər tikilməsi nəzərdə tutulmuşdur. Bunun üçün ölkəmizin hər cür imkanları vardır. Təkcə 2018-ci ildə ölkə iqtisadiyyatına 17,2 milyard manat vəsait qoyulmuş və respublikamızın ərazisində 118 mindən çox daimi iş yerləri yaradılmış, Dövlət Məşğulluq Xidməti tərəfindən 51 min 774 nəfər işlə təmin edilmiş, 118 min 138 nəfər peşə yönümü məktəblərinə, 2914 nəfər peşə hazırlığı kurslarına cəlb olunmuş, 8760 nəfərə isə işsizlikdən sığorta və müavinət verilmişdir. Həmin ildə ölkəmizin icmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri isə 22 milyard 719 milyon manat təşkil etmişdir. Onun 31,7 faizi və ya 7 milyard 197 milyon manatı sosialyönümlü xərclərin payına düşmüşdür. Hazırda ölkəmizin xarici borcu ümumi daxili məhsulumuzun cəmi 19 faizini təşkil edir. Nəzərə alsaq ki, inkişaf etmiş bəzi ölkələrdə bu göstəricinin səviyyəsi 100-120 faizə bərabərdir və bu göstəricinin 50 faiz təşkil etdiyi ölkələr sabit ölkə kimi tanınır, **onda bu sahədə də ölkəmizin dünya ölkələri arasında ən yaxşı yerlərdən birini tutduğu aydınlaşır.** İndi Azərbaycan bir çox göstəricilərinə görə inkişaf etmiş bir çox ölkələri qabaqlayır. Ölkəmizin bu nailiyyətləri Beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının "Doniq Business" hesabatında Azərbaycan biznesi şəraitinə görə dünya miqyasında 25-ci yerə layiq görülmüş və il ərzində 32 pillə irəliləyərək 10 ən islahatçı ölkə sırasında yer almışdır. Ölkə başçımız İlham Əliyev cənablarının dediyi kimi: **"Bu rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir".** İnklüziv İnkişaf İndeksi göstəricisinə görə də Azərbaycan Respublikası keçid iqtisadiyyatlı ölkələr arasında ən qabaqcıl yerlərdən birini tutur. Təsadüfi deyildir ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişdir. Davos Forumunun **"İnklüziv inkişaf indeksi"** adlı 2017-ci ilə dair ilk hesabatında ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında Litva və Macarıstandan sonra 3-cü yeri tutmuşdur. Bu qrupa daxil olan ölkələr arasında Azərbaycan Respublikası Avropa İttifaqının, zəngin ölkələri birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, "Böyük iyirmilik" (Q.20) qrupunun üzvləri olan bir çox dövlətlərdən qabaqdadır. **Hazırda ölkəmiz İnsan İnkişafı İndeksi göstəricisinə görə** dünyanın 189 ölkəsi arasında 80-ci yeri tutur. Bütün bunlar təsadüfi olmayıb ölkə Prezidenti cənabİlham Əliyevin apardığı səmərəli iqtisadi islahatların və düşünülmüş iqtisadi siyasətinin nəticəsində mümkün olmuşdur.

**"Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi durur",** - deyən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-2018-ci illər ərzində ölkə iqtisadiyyatında məşğul olan hər bir işçinin orta aylıq nominal əməkhaqlarının məbləği 7,0 dəfə, pensiyaların məbləği 9,0 dəfə, minimum əməkhaqqının məbləği isə 6,5 dəfə artmışdır. İlham Heydər oğlu Əliyevin 11 aprel 2018-ci ildə yenidən 7 il müddətinə Prezident seçildikdən sonra ötən bir il ərzində həyata keçirdiyi islahatlar iqtisadiyyatın müxtəlif sahələrini əhatə etsə də, **başlıca hədəf sosial məsələlərin həlli, əhalinin rifahının yaxşılaşdırılmasından ibarət olmuşdur. Bunun əsasında isə ölkə iqtisadiyyatında baş vermiş müsbət irəliləmələr durur. Keçən il respublikamız üçün sözün əsil mənasında uğurlu il olmuşdur. 2018-ci ildə dünya miqyasında və regionda gedən mənfi proseslərə baxmayaraq Azərbaycan Respublikası hərtərəfli və dinamik inkişafa malik olmuşdur.**

Belə ki, ötən il respublikamızda ÜDM-un həcmi 1,4 faiz, qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı 4,6 faiz, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır. **Həyata keçirilmiş uğurlu islahatların** nəticəsidir ki, 2019-cu ilin təkcə birinci ayı ərzində ölkə büdcəsinə plandan əlavə vergi orqanları tərəfindən 80,0 milyon manatdan çox, gömrük orqanları tərəfindən isə 20,0 milyon manatdan çox vəsait köçürülmüşdür. **Təsadüfi deyildir ki, ölkə vətəndaşlarımızın mütləq əksəriyyəti Prezident cənab İlham Əliyevin fəaliyyətindən və islahatlar kursunun nəticələrindən tam razıdırlar.** Buna Fransanın məşhur "Opiniol Way" şirkətinin 2019-cu ilin mart ayında Azərbaycanda keçirdiyi rəy sorğusunun nəticələrindən də aydın görmək olar. **Prezident İlham Əliyevin fəaliyyətini həmin sorğuda iştirak etmiş respondentlərin 85,1 faizi müsbət qiymətləndirmişdir. Rəyi soruşanların 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını onun fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Dövlət başçısının islahatlar kursuna respondentlərin 90,5 faizi, Prezident xarici siyasətinə 89,5 faizi, seçkiqabağı vədlərinin yerinə yetirilməsinə 75,6 faizi, həyata keçirdiyi kadr siyasətinə 78,8 faizi, korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən tədbirlərə 75,6 faizi, regionların sosial-iqtisadi inkişaf proqramlarının icrasına 93,1 faizi, 90,4 faizi bölgələrə səfərlərinin faydalılıq əmsalına müsbət rəyi bildirmişlər.** Bura xüsusi olaraq onu da qeyd etmək lazımdır ki, 2018-ci ilin aprel ayında keçirilmiş prezident seçkilərindən sonra ölkədə aparılmış iqtisadi islahatların həyata keçirilməsi sahəsində çox mühüm addımlar atılmağa başlanmışdır ki, bunlar da ölkə əhalisi tərəfindən rəğbətlə qarşılanmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev hələ 2019-cu ilin əvvəllərində ölkədə 2 milyon 200 min vətəndaşımızı əhatə edəcək irimiqyaslı sosial müdafiə paketinin tətbiq ediləcəyi barədə açıqlama vermişdir. Onun 2019-cu il 8 fevral tarixli sərəncamı ilə minimum əməkhaqqının məbləği 38,0 faiz artırılaraq 130 manatdan 180 manata, pensiyaların məbləği isə 116 manatdan 160 manata çatdırılmışdır ki, bu da ölkə əhalisinin 600 min nəfərinin rifahının yaxşılaşdırılmasına şərait yaratmışdır. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid ailələri üçün nəzərdə tutulmuş prezident təqaüdünün məbləği 242 manatdan 300 manata, Əfqanıstan müharibəsində həlak olanların ailələrinə verilən müavinət 220 manatdan 300 manata çatdırılmış; 100 min nəfərədək tələbənin təqaüdü isə əhəmiyyətli dərəcədə artırılmışdır. Şəhid ailələrinin vərəsələrinə də 11 min manatlıq məbləğində birdəfəlik müavinət verilmişdir. Dövlət başçımızın 2019-cu il aprelin 1-dən etibarən **"Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında"** sərəncamı qüvvəyə minmiş və 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə isə prezident təqaüdləri orta hesabla 100 faiz artırılmışdır.

Ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, Çernobıl qəzasının ləğvi ilə əlaqədar əlilliyi olanlar üçün (əmək pensiyası hüququ olmayan) ayrılan vəsaitin və digər sosial müavinətlərin artan məbləğinə nəzər saldıqda aydın olur ki, 2019-cu ilin aprel ayının 1-dən yaşa görə sosial müavinətlərin məbləği 130 manat; I qrup əlilliyə görə 150 manat; II qrup əlilliyə görə 130 manat; III qrup əlilliyə görə 110 manat; ailə başçısının itirilməsinə görə 80 manat, sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara 150 manat; valideynlərini itirmiş uşaqların qəyyumlarına 100 manat; müddətli hərbi xidmət qulluqçularının uşaqlarına 100 manat, **beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 55 manat, uşağın anadan olmasına görə 200 manat;** dəfn üçün ödənilən sosial müavinətlər üçün 300 manat, I qrup əlilliyə görə prezident təqaüdü 100, onlara qulluq edənlərə 50 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara Prezident təqaüdü isə 50 manat məbləğində müəyyən edilmişdir. Qeyd edilən sərəncamla müharibə əlilləri və onlara bərabər tutulan şəxslər üçün Prezident təqaüdünün məbləği I qrup əlilliyə görə 182 manatdan 250 manata, onlara qulluq edənlərə isə 50 manat, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılmışdır. **Beləliklə,** əgər I qrup müharibə əlilləri və onlara bərabər tutulan şəxslər 150 manat sosial müavinət alırdılarsa, bundan sonra həmin məbləğin üzərinə 250 manat prezident təqaüdü və 50 manat da onlara qulluq edən şəxsin məvacibi daxil ediləcək. Yəni bu kateqoriyaya aid şəxslər ayda ümumilikdə 450 manat alacaqlar. II qrupa aid olanların (190+230) 360; III qrupa aid olanların isə (110-210) alacaqları müavinət 320 manat təşkil edilələcəkdir. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad müharibəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərin (müharibə illəri istisna olmaqla) prezident təqaüdünün məbləği isə 150 manat olaraq müəyyənləşdirilmişdir. **2016-cı ilin aprel döyüşlərində əlil olanların təqaüdləri isə 100 faiz artırılmışdır.** Ötən il ölkə Prezidenti AMEA-nın həqiqi və müxbir üzvlərinin, elmi müəssisə və təşkilatlarda çalışan işçilərin, tələbə və doktorantların stimullaşdırılması ilə bağlı bir sıra sərəncamlar imzalanmışdır. **Bütün bunlar ölkəmizdə həyata keçirilən və davamlı xarakter daşıyan sosial yönümlü siyasətin bariz nümunəsidir.** Elə həmin siyasətin nəticəsidir ki, **indi Azərbaycanda bütün başqa sahələrdə olduğu kimi demoqrafik inkişaf sahəsində də vəziyyət yaxşıdır, müsbətdir.** Başqa sahələrdə olduğu kimi, ölkə əhalisinin artımı sahəsində baş verən dəyişikliklər də prezident İlham Əliyev cənablarının daim diqqət mərkəzindədir. O, hələ 2011-ci ilin 14 yanvarında Nazirlər Kabinetində keçirilmiş iclasdakı yekun nitqində demişdir ki: **"Keçən il ölkəmizin həyatında əlamətdar hadisə baş vermişdir. 9 milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu, çox sevindirici haldır, bizim əhalimizin sayı artır... Mən çox istərdim ki, Azərbaycan əhalisi daha da artsın və əminəm ki, ölkədə gedən proseslər bu məqsədə çatmaq üçün şərait yaradacaqdır.** Bir il sonra, yəni 2012-ci ilin 11 iyununda Nazirlər Kabinetində keçirilmiş iclasdakı giriş nitqində prezident **İlham Əliyev yenidən bu məsələdən bəhs edərək demişdir ki: "Azərbaycandakı demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım vardır. Ancaq hesab edirəm ki, bu artım daha da güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün yəqin ki, əlavə tədbirlər görülməlidir". Nəticə göz önündədir.** 6 aprel 2019-cu il tarixdə ölkəmizin 10 milyonuncu sakini dünyaya gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu tarixi hadisə münasibətilə 9 aprel 2019-cu il tarixdə Respublika Perinatal Mərkəzinə gələrək Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşmüş və onları təbrik etmişlər. **(Qeyd: Yenicə dünyaya göz açmış qız uşağının valideynləri Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın şərəfinə həmin qıza Mehriban adı vermişlər). Prezident İlham Əliyev** bu görüşdə üzünü həmin körpənin valideynlərinə tutaraq demişdir: **"Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm. əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır... bu hadisəni bütün xalqımız bayram edir".**

**Burada onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası əhalisinin sayı son 50 il ərzində (1969-2019-cu illər) 4990,5 min nəfər və ya təqribən iki dəfə artaraq 5009,5 min nəfərdən 10,0 milyon nəfərə, o cümlədən müstəqillik illərinədən əvvəlki 22**



**il ərzində (1969-1991-ci illər) 2209,0 min nəfər və ya 44,1 faiz artaraq 7218,5 min nəfərə; 1993-2003-cü illəri əhatə edən 10 il ərzində 829,2 min nəfər və ya 11,1 faiz artaraq 7440,0 min nəfərdən 8269,2 min nəfərə; 2003-2019-cu illəri əhatə edən 16 il ərzində isə 1730,1 min nəfər və ya 20,9 faiz artaraq 8269,2 min nəfərdən 10,0 milyon nəfərə gəlib çatmışdır.**

Hazırda Azərbaycan Respublikası əhalisinin sayına görə dünya əhalisinin (7,6 milyard nəfər) cəmi 0,13 faizini təşkil edərək 247 ölkə arasında 88-ci yerdə, Avropa Birliyi ölkələri arasında (28 ölkə) 14-cü yeri, MDB ölkələri arasında (12 ölkə) isə Rusiya Federasiyası (146,8 milyon nəfər), Ukraniya (42,0 milyon nəfər), Özbəkistan (32,4 milyon nəfər) və Qazaxıstan (18,4 milyon nəfər) respublikalarından sonra 5-ci yerdə qərarlaşmışdır. İndi Azərbaycan Respublikasının əhalisinin sayı üst-üstə götürüldükdə Ermənistan (2,98 milyon nəfər) və Gürcüstan (3,72 milyon nəfər) Respublikalarının əhalisinin sayından 3,3 milyon nəfər və ya təqribən 1,5 dəfə (49,3 faiz), Baltikyanı ölkələrin əhalisinin sayından isə (Litva - 2,8 milyon nəfər, Latviya - 1,9 milyon nəfər və Estoniya - 1,3 milyon nəfər) 4,0 milyon nəfər və ya təqribən 1,7 dəfə (66,7 faiz) çoxdur. **Ümumiyyətlə, götürüldükdə isə son 12 il ərzində (2005-2017-ci illərdə) dünyada,** Avropa Birliyi və MDB ölkələrində əhalinin sayında və demoqrafik proseslərdə (əhalinin hər 1000 nəfərinə düşən doğum, ölüm və təbii artım) baş vermiş dəyişikliklərə nəzər saldıqda aydın olur ki, həmin ölkələrlə müqayisədə **Azərbaycan Respublikasında demoqrafik vəziyyət və əhalinin artım surəti daha müsbət və sabit xarakter daşıyır.** Belə ki, əgər müqayisə edilən dövrdə (2005-2017-ci illər) dünya əhalisinin sayı 17,2 faiz və ya hər il orta hesabla 1,4 faiz artaraq 6,4 milyard nəfərdən 7,5 milyard nəfərə, Avropa Birliyi ölkələrində cəmi 3,4 faiz və ya hər il orta hesabla 0,28 faiz artaraq 494,7 milyon nəfərdən 511,5 milyon nəfərə, MDB ölkələrində isə 3,3 faiz və ya hər il orta hesabla 0,27 faiz artaraq 275,0 milyon nəfərdən 284,0 milyon nəfərə gəlib çatmamışdırsa, **Azərbaycan Respublikasında əhalinin sayı 17,9 faiz və ya orta hesabla hər il təqribən 1,5 faiz artaraq 8,4 milyon nəfərdən 9,9 milyon nəfərə gəlib çatmışdır. Başqa sözlə desək, müqayisə edilən dövrdə ölkəmizin əhalisinin artım sürəti dünya miqyasında olduğundan 0,2 faiz bənd, Avropa Birliyi ölkələrindəkindən 14,5 faiz bənd, MDB ölkələrindəkindən isə 14,6 faiz bənd yüksək olmuşdur. Bunu həmin ölkələrdəki demoqrafik proseslərdə baş vermiş dəyişikliklərin vəziyyəti də təsdiq edir. Belə ki, əgər müqayisə edilən dövrdə** (2005-2017-ci illərdə) dünya miqyasında əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 4,8 faiz azalaraq 21 nəfərdən 20,0 nəfərə, ölənlərin sayı isə 11,1 faiz azalaraq 9 nəfərdən 8,0 nəfərə düşmüş və əhalinin təbii artımı isə 12 nəfər təşkil edərək sabit qalmışdırsa, Avropa Birliyi ölkələrində əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayının 2,8 faiz azalması, ölənlərin sayının isə 3,1 faiz artmasına rəğmən təbii artımı azalaraq 0,6 nəfərdən sıfıra düşməsinə; MDB məkanına daxil olan ölkələrdə isə müvafiq surətdə doğulanların sayının 25,0 faiz artaraq 12 nəfərdən 15 nəfərə; ölənlərin sayının isə 15,0 faiz azalaraq 13 nəfərdən 11 nəfərə düşməsi təbii artımın mənfi 1 nəfərdən 4 nəfərə qalxmasına səbəb olmuşdur. **Müqayisə edilən ölkələrdən fərqli olaraq Azərbaycan Respublikasında qeyd edilən** dövrdə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 12,4 faiz azalaraq 16,9 nəfərdən 14,8 nəfərə, ölənlərin sayının isə 4,8 faiz azalaraq 6,2 nəfərdən 5,9 nəfərə düşməsi nəticəsində təbii artımın səviyyəsi 16,8 faiz azalaraq 10,7 nəfərdən 8,9 nəfərə düşmüşdür.

Bu göstərcilərdən aydın olur ki, 2017-ci ildə ölkəmizdə əhalinin hər 1000 nəfərinə düşən təbii artımın sayı dünya miqyasındakına nisbətən 3,1 nəfər (25,3 faiz) az olmasına baxmayaraq Avropa Birliyi ölkələrində olduğundan 4,9 nəfər (4,9 dəfə), MDB ölkələrində olduğundan isə 8,9 nəfər (8,9 dəfə) çox olmuşdur.

Doğrudur, bu göstəricilərdən aydın olur ki, hazırda ölkəmizdə əhalinin hər 1000 nəfərinə düşən təbii artımın səviyyəsi Avropa Birliyi və MDB məkanına daxil olan ölkələrə nisbətən xeyli yüksəkdir. **Əlbəttə,** bununla arxayınlaşmaq olmaz. Onu da nəzərə almaq lazımdır ki, 2005-2011-ci illərdə ölkəmizdə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı təqribən 14,8 faiz artaraq 16,9 nəfərdən 19,4 nəfərə qalxmasına və ölənlərin sayının 3,7 faiz azalaraq 6,2 nəfərə düşməsinə, təbii artım səviyyəsinin isə 16,8 faizdən çox artaraq 10,7 nəfərdən 12,5 nəfərinə qalxmasına baxmayaraq 2011-2017-ci ildə müvafiq surətdə doğulanların sayı 23,7 faiz azalaraq 19,4 nəfərdən 14,8 nəfərə düşmüş, ölənlərin sayı isə dəyişməz qalaraq 5,9 nəfər təşkil etmiş və nəticədə təbii artımın səviyyəsi təqribən 34,0 faiz azalaraq 13,5 nəfərdən 8,9 nəfərə düşmüşdür. Burada onu da əlavə etsək ki, müqayisə edilən dövrdə (2011-2017-ci illər) ölkəmizdə nikahların sayı 28,6 faiz azalaraq 88,1 mindən 62,9 minə düşmüş, boşanmaların sayı isə 40,2 faiz artaraq 10,7 mindən 14,5 minə qalxmışdır, onda vəziyyətin necə dəyişə biləcəyini təsəvvür etmək o qədər də çətin olmaz. Ona görə də indiyədək dövlət səviyyəsində lazımi kompleks demoqrafik siyasət tədbirləri sistemi işlənib hazırlanıb həyata keçirilməsə gələcəkdə bu sahədə müəyyən çətinliklər meydana çıxa bilər. Təsadüfi deyildir ki, ölkə başçımız cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki: **"Azərbaycanda demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım vardır. Ancaq hesab edirəm ki, bu artım daha da güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün yəqin ki, əlavə tədbirlər görülməlidir... Bizim iqtisadiyyatımız, sənaye gücümüz və siyasi iradəmiz diktə edir ki, Azərbaycan əhalisi daha da artmalıdır. Ona görə biz bu məsələ ilə bağlı ciddi məşğul olmalıyıq... "Hesab edirəm ki, bizim alimlərimiz demoqrafik vəziyyətlə bağlı daha da fəal işləməlidirlər".** Əlbəttə, bu təsadüfi deyilməmişdir. Bu, dövlət başçımız tərəfindən həmin problemlə məşğul olan biz alimlərə edilmiş çağırışdır və bizim qarşımızda qoyulmuş dövlət əhəmiyyətli vəzifədir. Buna görə də hazırda demoqrafik inkişaf sahəsində mövcud olan problemlər demoqrafiya sahəsində çalışan alimlərimiz başqa müvafiq elm sahələrində çalışan mütəxəssislərin birgə səyi və iştirakları ilə dərindən araşdırılıb öyrənilməli və müvafiq dövlət hökumət orqanlarına bu sahədə vəziyyətin daha da yaxşılaşdırılmasına dair elmi surətdə əsaslandırılmış təklif və tövsiyələr hazırlanıb təqdim etməlidirlər. Çünki, əhali mücərrəd anlayış olsa da onda baş verən dəyişikliklər demoqrafik proseslərdə əks olunur. Demoqrafik proseslər isə cəmiyyət həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlıdır. Bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirini təzahür edir. Buna görə də bütünlükdə cəmiyyətin, hər bir ölkənin və onun ayrı-ayrı ərazilərinin **gələcək inkişaf konsepsiyasını demoqrafik inkişaf konsepsiyasız təsəvvür etmək qeyri-mümkündür.** Belə ki, ölkənin gələcək iqtisadi və sosial inkişaf strategiyasının müəyyənləşdirilməsi və bu sahədə düzgün sosial-iqtisadi siyasət tədbirləri işlənib hazırlanması, ilk növbədə burada yaşayan əhalinin və müxtəlif sosial-demoqrafik qruplardan olan insanların gözlənən dəyişikliklərə nə dərəcədə, hazır olub-olmaması imkanlarının ölçülüb biçilməsinə əsaslanmalı, bu zaman onların malik olduğu dəyərlər, mənafe, ənənə və istəkləri diqqətlə nəzərə alınmalı və mövcud insan potensialının kəmiyyət-keyfiyyət vəziyyəti obyektiv surətdə qiymətləndirilməlidir. Çünki elm-texniki tərəqqinin sürəti, əməyin təşkili və mədəniyyəti, onun məhsuldarlığı, hər şeydən əvvəl insan potensialının keyfiyyətindən asılıdır. Hazırda inkişaf etmiş ölkələrdə iqtisadi artıma, onun sürəti, quruluşu və keyfiyyətinə məqsəd kimi deyil, insanların həyatının zənginləşdirilməsi, yaşayış səviyyəsi və keyfiyyətinin yaxşılaşdırılması və insan potensialının müntəzəm surətdə inkişafı üçün zəruri olan vasitə kimi baxır. Bu səbəbdəndir ki, indi dünyada başqa istiqamətlərə nisbətən insan potensialına qoyulan vəsait daha səmərəli hesab olunur. Təsadüfi deyil ki, ulu öndərimiz Heydər Əliyev 28 dekabr 1998-ci il tarixli sərəncamı ilə bu sətirlərin müəllifinin elmi rəhbərliyi və bilavasitə iştirakı ilə ilk dəfə olaraq "Azərbaycanın Demoqrafik İnkişaf Konsepsiyası" hazırlanmış və onun "9" dekabr 1999-cu il tarixli sərəncamı ilə təsdiq edilərək həmin ayın 16-da ölkə mətbuatında dərc edilmişdir. Elmi surətdə əsaslandırılmış bu konsepsiyada ilk dəfə olaraq Azərbaycan Respublikasında demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi, vəzifələri, prinsipləri, milli prioritetləri və həyata keçirilməsi mexanizmləri öz əksini tapmışdır. Həmin konsepsiyada göstərildiyi kimi, demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meyilləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdən, əsas vəzifəsi isə əhalinin kəmiyyət-keyfiyyətinin normal təkrar istehsalı üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şərait yaradılması; ölüm səviyyəsinin azaldılması; əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması; nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması; ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi; respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğaldan azad edilmiş ərazilərdə əhalinin məskunlaşdırılmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaxşılaşdırılması; ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi; sağlam həyat tərzinin formalaşdırılmasının normalara uyğun tənzimlənməsindən ibarətdir. Ulu öndərimiz Heydər Əliyevin 23 iyun 2003-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramının hazırlanması üzrə Dövlət Komissiyasının tərkibi" təsdiq edilmişdir. Bu sətirlərin müəllifinin də üzvü olduğu həmin komissiyanın üzvləri ölkəmizin müvafiq nazirliklərinin və elmi müəssisələrinin mütəxəssislərinin iştirakı və bizim elmi rəhbərliyimizlə "Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2004-2008-ci illər) işlənib hazırlanmış və ölkə Prezidenti İlham Əliyevin 11 noyabr 2004-cü il" tarixli sərəncamı ilə təsdiq edilərək həyata keçirilmişdir. Respublika prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə həmin Dövlət Proqramında nəzərdə tutulmuş demoqrafik siyasət tədbirlərinin yerinə yetirilməsi və sosial-iqtisadi sahədə həyata keçirilmiş islahatlar, əldə olunmuş davamlı makroiqtisadi və siyasi sabitlik, əhalinin yoxsulluq və işsizlik səviyyəsinin azaldılması, əhalinin həyat səviyyəsi və onun keyfiyyətinin yüksəldilməsi və sair nəticəsində bütün sahələrdə olduğu kimi demoqrafik inkişaf sahəsində də müsbət dəyişikliklər baş vermiş və 2003-cü ilə nisbətən burada əhalinin sayı 1730,8 min nəfər və ya 21,0 faiz (orta hesabla hər il 108,2 min nəfər və ya 1,31 faiz artaraq) artaraq 06 aprel 2019-cu il tarixdə 10,0 milyon nəfərə gəlib çatmışdır. Bu dövrdə ölkənin demoqrafik vəziyyətində baş vermiş ən müsbət dəyişikliklərdən biri də ondan ibarətdir ki, 1990-cı ildən ötən 18 il ərzində, ilk dəfə olaraq 2008-ci ildən başlayaraq daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı daimi yaşamaq üçün ölkəmizdən gedənlərin sayını üstələmiş və respublikamızda əhalinin miqrasiya qalığı (saldosu) müsbət xarakter almağa başlamışdır. Belə ki, əgər 1990-cı ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı 84,3 min nəfər, daimi yaşamaq üçün buradan gedənlərin sayı 137,9 min nəfər təşkil etmiş və əhalinin miqrasiya qalığı (saldosu) mənfi 53,6 min nəfər; 2003-cü ildə isə müvafiq surətdə 2,5 və 3,8 min nəfər və mənfi 1,3 min nəfər təşkil etmişdirsə 2008-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı 3,6 min nəfər, ölkədən daimi yaşamaq üçün gedənlərin sayı isə 2,5 min nəfər təşkil etmiş və ya miqrasiya qalığı (saldosu) müsbət 1,1 min nəfər olmuşdur. Bütünlükdə götürüldükdə isə 2008-ci ildən 2017-ci ilədək 7 il ərzində ölkəmizə daimi yaşamaq üçün gələnlərin sayı 265,0 min nəfər, ölkədən daimi yaşamaq üçün gedənlərin sayı isə 122 min təşkil etmişdir. Başqa sözlə desək, qeyd edilən dövrdə ölkəmizə daimi yaşamaq üçün gələnlərin sayı ölkədən daimi yaşamaq üçün gedənlərin sayından 2,2 dəfə çox olmuş və ya miqrasiya artımı müsbət 143,0 min nəfər təşkil etmişdir. Əlbəttə, bütün bunlar hər şeydən əvvəl ölkəmizin sosial-iqtisadi inkişafında baş vermiş müsbət dəyişikliklər və burada yaradılmış ictimai-siyasi sabitliklə bağlıdır. Təkcə bunları demək kifayətdir ki, 2005-2017-ci illərdə ölkənin əsas iqtisadi və rifah göstəricisi sayılan Ümumi Daxili Məhsulun (ÜDM) həcmi 5,6 dəfə artaraq 12,5 milyard manatdan 70,1 milyard manata, onun əhalisinin hər nəfərinə düşən məbləği isə 4,8 dəfədən çox artaraq 1494,3 manatdan 7205,0 manata gəlib çatmış, dövlət büdcəsindən təhsilin inkişafına ayrılan vəsaitlərin məbləği təqribən 4,7 dəfə artaraq 372,5 milyon manatdan 1742,8 milyon manata, səhiyyənin inkişafına ayrılan vəsaitlərin məbləği 6,1 dəfə artaraq 115,3 milyon manatdan 704,7 milyon manata; əhalinin hər nəfərinə düşən gəlirlərin məbləği isə 5,2 dəfədən çox artaraq 962,2 manatdan 5050,0 manata qalxmışdır. Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da demoqrafik vəziyyətə təsir edən amillər arasında əhalinin, xüsusilə qadınların məşğulluq və təhsil səviyyəsi mühüm yer tutur. Rəsmi statistik məlumatlara əsasən son 15 il ərzində (2003-2017-ci illər) respublika iqtisadiyyatında məşğul olan əmək qabiliyyətli yaşında iqtisadi fəal qadınların sayı 29,8 faiz artaraq 1787,3 min nəfərdən 2319,3 min nəfərə qalxmış; işsiz qadınların sayı 25,3 faiz azalaraq 194,7 min nəfərdən 145,5 min nəfərə, onların işsizlik səviyyəsi isə 1,8 dəfədən çox azalaraq 10,9 faizdən 5,9 faizə düşmüşdür. Hazırda ölkə iqtisadiyyatında muzdla işləyənlərin 41,1; informasiya və rabitə - 30,8; maliyyə və sığorta fəaliyyətində - 33,9; peşə, elmi və texniki fəaliyyətdə 45,1; dövlət idarəetməsi və müdafiə; sosial təminatda 27,6; təhsil sahəsində 73,8; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 76,5; istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətdə 63,1 faizi və sair qadınların payına düşür. Qadınların təhsil vəziyyətində baş vermiş dəyişikliklərə gəldikdə isə bunu ondan görmək olar ki, respublikamız öz müstəqilliyini bərpa etdikdən sonra 1999 və 2009-cu illərdə azad surətdə ölkəmizdə keçirilmiş əhalinin ümumi siyahıyaalınması məlumatlarına əsasən qeyd edilən dövrdə burada yaşı 10 və yuxarı olan əhalinin hər 1000 nəfərinə düşən təhsili olanların sayı 7.0 faiz artaraq 795 nəfərdən 851 nəfərə, o cümlədən qadınların sayı 6,8 faiz artaraq 807 nəfərdən 862 nəfərə; ali və natamam ali təhsili olanların sayı 34,6 faiz artaraq 78 nəfərdən 105 nəfərə, qadınlar arasında isə 40,6 faiz artaraq 91 nəfərdən 121 nəfərə qalxmışdır. Bu göstərici müvafiq surətdə ölkədə ümumi orta təhsili olanlar üzrə 29,4 faiz artaraq 335 nəfərdən 435 nəfərə, o cümlədən qadınlar üzrə 22,2 faiz artaraq 369 nəfərdən 451 nəfərə çatmışdır. 2017-ci ildə respublikamızda yaşayan 2464,8 min nəfər iqtisadi fəal qadınların 13,6 faizini ali; 13,7 faizini orta ixtisas, 3,6 faizini ilk peşə-ixtisas, 59,7 faizini tam orta, 8,2 faizini ümumi orta, 1,5 faizini ibtidai təhsili olanlar; iqtisadiyyatda məşğul olmuş 2319,3 min nəfər qadının isə 16,5 faizini ali; 10,7 faizini orta ixtisas, 5,4 faizini ilk peşə-ixtisas, 60,0 faizini tam orta, 6,4 faizini ümumi orta, cəmi 1,0 faizini isə ibtidai təhsili olanlar təşkil etmişdir. Bakı, 2018. səh. 122 və 125). 2000-2018-ci illəri əhatə edən dövrdə respublikamızda orta ixtisas təhsil müəssisələrində oxuyan qızların sayı 4,0 faiz artaraq 29,7 min nəfərdən 30,9 min nəfərə, ali təhsil müəssisələrində isə 1,6 dəfədən çox (62,2 faiz) artaraq 49,8 min nəfərdən 80,8 min nəfərə gəlib çatmışdır. Rəsmi statistikanın məlumatlarına əsasən 2017-2018-ci tədris ilində respublikanın dövlət və qeyri-dövlət ümumi təhsil müəssisələrində təhsil alan 1520,2 min şagirddən 700,6 min nəfərini və ya 46,1 faizini; orta ixtisas təhsili müəssisələrində oxuyan 47,4 min tələbənin 30,9 min nəfərini və ya 65,2 faizini, ali təhsil müəssisələrində oxuya 167,7 min tələbənin isə 80,8 min nəfərini və ya 48,2 faizini qızlar təşkil etmişlər.

Bütün bunlar ölkədə baş verən demoqrafik dəyişikliklərə təsirsiz qalmamış və son illərdə burada həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticələri kimi qiymətləndirilməlidir. Bu il oktyabr ayının 1-10-da isə ölkəmizdə əhalinin növbəti siyahıyaalınmasının keçirilməsi nəzərdə tutulmuş və bununla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 07 sentyabr 2016-cı il tarixdə fərman imzalanmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti isə həmin fərmandan irəli gələn vəzifələri rəhbər tutaraq öz növbəsində 16 dekabr 2016-cı il tarixdə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında qərar vermişdir. 2019-cu ilin oktyabr ayında keçirilməsi nəzərdə tutulmuş respublika əhalisinin siyahıyaalınması müstəqillik dövründə azad surətdə keçiriləcək sayca əhalinin 3-cü siyahıyaalınması olacaqdır. Dövlət başçısının fərmanına uyğun olaraq əhalinin siyahıyaalınması ilə bağlı olan hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənməsi və nəticələrinin dərc edilməsi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə həvalə edilmişdir. Bu il keçiriləcək əhalinin siyahıyaalınması milli səviyyədə demoqrafik və sosial-iqtisadi inkişafa dair proqnozların işlənib hazırlanması ilə yanaşı, həm də beynəlxalq tövsiyələr və milli prioritetlər əsasında respublikamızda əhalinin 2009-cu ildə keçirilmiş son siyahıyaalınmasından keçən dövrdə əhalimiz haqqında dəqiq və müfəssəl məlumatların əldə edilməsinə imkan verəcək və ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulmuş Dövlət proqramlarından və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn hədəflərin qiymətləndirilməsində mühüm rol oynayacaqdır. Burada onu da qeyd etmək lazımdır ki, ölkədə həyata keçirilən sosial-iqtisadi tədbirlər demoqrafik proseslərin inkişafına birdən-birə deyil, uzun bir tarixi dövr ərzində və hər bir ailədə doğulan uşaqların sayına, onların doğulma müddətlərinə verilən üstünlük, şəxsi və ictimai sağlamlıq dəyərlərinin dərk edilməsi, ailələrin möhkəmliyi və yeni yaşayış yerlərinin seçilməsi və sair bu kimi problemlərlə bağlı olan münasibətlərin dəyişilməsi vasitəsi təsir göstərir. Buna görə də demoqrafik proseslərin nizama salınması məsələlərinin həlinə təkcə müasir tələblər baxımından deyil, həm də gələcəkdə bu inkişafın tələb və məqsədləri və bütünlükdə sosial-iqtisadi hadisələr sistemində baxılmasını tələb edir. **Buna görə də ulu öndər Heydər Əliyevin 9 dekabr 1999-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İnkişaf Konsepsiyası"-nın** müddəaları əsas götürülməklə və 2019-cu ildə keçiriləcək əhalinin siyahıyaalınmasının nəticələri nəzərə alınmaqla Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində yeni, növbəti Dövlət Proqramının hazırlanmasına ehtiyac vardır. Belə bir Dövlət Proqramının mövcud olması ölkəmizdə demoqrafik proseslərdə və əhalinin kəmiyyət-keyfiyyət göstəricilərində baş verən dəyişikliklərin və onlara təsir edən kompleks amillərin aşkara çıxarılıb düzgün qiymətləndirilməsinə və bu əsasda səmərəli demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanmasına imkan verər. Bu tədbirlərin həyata keçirilməsi isə öz ölkəmizdə əhalinin normal təkrar istehsal proseslərinin təmin edilməsinə, əhalinin təbii və mexaniki hərəkətinin ahəngdar gedişinə və demoqrafik vəziyyətin daha da yaxşılaşdırılmasına səbəb olmaqla xalqımızın həyat səviyyəsi və onun keyfiyyətinin daha da yüksəlməsinə, ölkəmizin iqtisadi və hərbi qüdrətinin daha da artmasına səbəb olacaqdır.

**Şahbaz MURADOV,**
**AMEA-nın müxbir üzvü,**
**Əməkdar elm xadimi,**
**iqtisad elmləri doktoru, professor.**

# Ulu öndər Heydər Əliyev xatirələrimdə

**1976-cı il idi. Mən “Neft daşları”nda böyük mühəndis vəzifəsində çalışırdım. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev “Neft daşları”na neftçilərlə görüşə gəlmişdi.**

O hamını dinlədi, mənzil problemi olan neftçilərin məsələsinin həll olunacağını vəd etdi, sonra “Neft daşları”nda hansı yataqların olduğunu soruşdu. Baş geoloq Ənvər Məmmədov saymağa başladı - Kovereçkin, Jdanov, “Октябрьская революция”, “28 апреля”... Heydər Əliyev gülümsəyib Ənvər Məmmədovdan soruşdu: “Ənvər, elə bir neft yatağı tapmaq olmaz ki, onun adını “Məşədi İbad” qoyaq?” Ulu öndər bununla bildirmək istəyirdi ki, bizim vətənimizdə azərbaycanlıların zəhməti ilə bu qədər yataq kəşf olunub, amma birinə də milli ad verilməyib. Bu, Heydər Əliyevin Azərbaycan xalqına nə qədər bağlı olmasının göstəricisi idi. Sonra o Neft-Qaz Çıxarma İdarəsinin rəisi Bəhmən Hacıyevdən idarədə rəhbər vəzifələrdə təmsil olunan millətlərin nümayəndələrini soruşdu. Vəzifədə olan millətlərin nümayəndələrinin adları çəkildikcə ulu öndərin üzündə ciddilik hiss olunurdu, o sanki demək istəyirdi ki, “bəs azərbaycanlılar haradadır?” . Neftçilərlə söhbət zamanı mən öz-özümə fikirləşirdim ki, görəsən Heydər Əliyev neftçidir, yoxsa siyasətçi?

1978-ci ildə “Neft daşları”na SSRİ qaz sənayesi naziri Sabit Orucov da Xəzərdə qazılan yataqlara Azərbaycanın görkəmli şəxssiyyətlərindən heç birinin adının verilməməsi barəsində iradı Xoşbəxt Yusifzadəyə bildirdi və Heydər Əliyevin sözlərini olduğu kimi təkrar etdi: “Elə bir neft yatağı tapmaq olmaz ki, onun adını “Məşədi İbad” qoyaq”. Mən onda başa düşdüm ki, ulu öndər öz narazılığını Sabit Orucova bildirib.

Onu da qeyd etməliyəm ki, məhz Heydər Əliyevin inadkarlığı nəticəsində Krımda tikilməli olacaq Dərin Dəniz Özüllər zavodu Bakıda tikildi. Bu zavod ölkəmiz müstəqillik qazandıqdan sonra Xəzərin neft yataqlarının mənimsənilməsində əvəzsiz rol oynamışdır.

Ulu öndərin hakimiyyəti dövründə 10-a yaxın qazma qurğusu Azərbaycan üçün inşa edildi. Bunlar bizə Xəzərdə olan dəniz-neft yataqlarını kəşf etməyə imkan verdi. Heydər Əliyevin əvəzsiz xidmətlərindən biri də SSRİ-də ilk dəfə yükqaldırma qabiliyyəti 2500 ton olan “Azərbaycan” kran gəmisinin inşası və Azərbaycana gətirilməsi oldu. Bu “Günəşli” yatağında yeni platformaların tikilməsinə şərait yaratdı. Uzun illər keçməsinə baxmayaraq hələ də “Azərbaycan” kran gəmisi regionda ən böyük və ən güclü gəmidir.

Heydər Əliyevin gəlişindən bir gün sonra mənə Neft-qaz çıxarma şöbəsində iş təklif olundu. İdarə rəisi Bəhmən Hacıyevin məsləhəti ilə bu təklifi qəbul etdim: “Bəhmən Hacıyev bu şöbədə maaşın nisbətən az olmasına baxmayaraq gələcək karyeram üçün perspektivli olacağını bildirdi. Çünki bütün aparat ermənilərin əlində idi - baş iqtisadçı, əməkhaqqı şöbəsi, kadrlar şöbəsi və s. Mən aparatda işə başlayan 3-cü azərbaycanlı oldum, 4 ildən sonra Neft-qaz çıxarma şöbəsinin rəisi və baş mühəndis vəzifəsinə yüksəldim. 1979-cu ildə Sabit Orucovun təklifi ilə SSRİ kontinental neft-qaz yataqları komissiyasının üzvü seçildim”.

XX əsrin 70-ci illərindən başlayaraq Sovet İttifaqı Cənubi Çin dənizində Vyetnam üçün neft axtarışına başlamışdı. Amma işlər çox ləng gedirdi. Vyetnam Kommunist Partiyasının birinci katibi SSRİ rəhbərliyinə müraciət edərək yardım istəmişdi. Rəhbərlik ölkənin hər yerindən bu sahə üzrə mütəxəssislərini toplayıb Vyetnama göndərmək qərarına gəlir. 1983-cü ildə mən “Neft daşları”nda İstehsalat Birliyinin baş mühəndisi vəzifəsində çalışırdım. Xəbər gəldi ki, biz Vyetnama ezam olunuruq, amma bu haqda heç bir ətraflı məlumat verilmədi. Azərbaycandan 6 nəfər Moskvaya gəldik. SSRİ Qaz Sənayesi Nazirliyindən tapşırıq verdilər ki, Cənubi Vyetnama gedin və orada neft axtarışı işinin niyə belə ləng getdiyini araşdırın. İyul ayında Vyetnamın Vunq Tau şəhərinə gəldik. Bir həftə ərzində buradakı vəziyyətlə tanış olduq. Bizdən bir həftə sonra Heydər Əliyev də bura gəldi. Onda ulu öndər artıq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tuturdu. Heydər Əliyev məsələni araşdırmaq üçün iclas keçirdi. Uzun müddət burada çalışan mütəxəssislərlə yanaşı biz də görüşdə iştirak edirdik. Ümummilli lider axtarış işlərinin zəif getməsinin səbəbini soruşdu. Rus mühəndislər çoxsaylı bəhanələr gətirməyə başladılar. Ulu öndər açıq şəkildə onların arqumentini qəbul etmədiyini bildirdi.

Sonra o üzünü “Günəşli” yatağında birinci platformanın layihəçisi olmuş Fərman Hacıyevə tutdu.

- Fərman Mustafayeviç, burada özülü qorumaq olarmı?

- Bəli, azərbaycanlı mütəxəssislərin təchizat məsələləri həll olunarsa 5-6 ilə bütün işləri yerinə yetirə bilərik.

Heydər Əliyev gülümsəyərək “4 ilə” dedi. F.Hacıyev də “bəli, 4 ilə” - cavabını verdi. Ulu öndər bizi şəxsən tanıyırdı və əmin idi ki, biz bütün tapşırıqları vaxtında yerinə yetirəcəyik. Onun bu inamlı çıxışı vyetnamlıları heyran etmişdi. Elə o iclasda Cəlal Məmmədov “Vietsovpetro” şirkətinin baş direktoru təyin olundu. Ondan sonra Azərbaycandan çoxlu sayda mütəxəssis Vyetnama işləməyə gəldi. Mən bir müddət sonra işlərimi yekunlaşdırıb Bakıya qayıtdım. 4 il ərzində qeyd olunan yerlərdə özüllər qoyuldu, o yataqlarda quyular qazıldı. Nəhayət, söz verilən vaxtda - 1987-ci ildə Vyetnamda ilk neft quyusundan neft alındı. Yeri gəlmişkən o dövrdən Bakı və Vunq Tau şəhərləri qardaşlaşmış şəhərlər elan olundu.

1984-cü ilin noyabr ayında “Neft daşları”nda böyük qasırğa oldu. Dalğanın hündürlüyü 11 metr, küləyin sürəti 44 metrə çatırdı. Rəhbərlikdən hər yerdə qayda-qanun yaradılması ilə bağlı tapşırıq gəldi. Bütün məsuliyyəti öz üzərimə götürərək neft quyularının bağlanılması, bütün insanların təhlükəli yerlərdən çıxarılması üçün komanda verdim. Yataqlar böyük təhlükə ilə üzləşsə də insan itkisi olmadı. Amma quyuları bağlamaqla neft hasilatı azaldığına görə rəhbərlik məni baş mühəndis vəzifəsindən azad edib “Günəşli”yə mədən müdiri göndərdi. Bir il sonra “Günəşli” yatağında da qəza baş verdi. SSRİ Qaz Sənayesi Nazirliyindən Y.Zaytsev və V.Çernomırdın hadisə yerinə gəlmişdi. Mən onlara qəzanın aradan qalxması üçün görülməli olan işlər barədə məlumat verdim. Təkliflərim Y.Zaytsevin xoşuna gəlmişdi və o bunları yadında saxlamışdı...

1987-ci ildə mən Moskvaya SSRİ Qaz Sənayesi Nazirliyinə dəvət olundum. Məni qəbul edən Y.Zaytsev dedi ki, sizin işləriniz haqqında Heydər Əliyevə məlumat vermişəm. Heydər Əliyev də deyib ki, mən onu tanıyıram, çox savadlı və işgüzar adamdır. Səni SSRİ Xalq Təsərrüfatı Akademiyasına qəbul etmək istəyirik. Ondan sonra Bakıya gəldim. Mart ayında mən Nazirlər Sovetində neft şöbəsinə rəhbərlik edən Zubkovla görüşdüm. O, Heydər Əliyevin inadla mənim SSRİ Xalq Təsərrüfatı Akademiyasına qəbul olunmağımı istədiyini bildirdi. Mən akademiyaya qəbul olundum. Orada təhsil alan 110 tələbədən yeganə azərbaycanlı idim.

...1988-ci ildə “Dağlıq Qarabağ”da ermənilərin iğtişaşları başlamışdı. Həmin vaxt Rusiya erməniləri böyük təbliğat kampaniyası aparırdılar. SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkovun oğlu mənim tələbə yoldaşım idi. O mənə demişdi ki, akademiyamızın erməni professoru Abel Aqambekyan Qarabağ məsələsi barədə Fransa parlamentində çıxış etmək üçün müxtəlif alçaq üsullardan istifadə edib. Aprel ayında Akademiyanın akt zalında keçirilən tədbirdə Aqambekyan “Dağlıq Qarabağ”ın ermənilərə məxsus olması ilə bağlı çıxış edirdi. Mən də həmin vaxt tribunaya çıxıb onu ifşa etdim. Aqambekyan məni akademiyadan xaric etdirmək istəsə də alınmadı. Mən akademiyanı qırmızı diplomla bitirdim.

1989-cu ildə ermənilər Moskvada çox böyük işlər görürdülər. Dekabr ayının 5-də Puşkin adına meydanda ermənilər tərəfindən böyük bir mitinq təşkil edilmişdi. Ataları böyük vəzifələrdə işləyən tələbə yoldaşlarım mənə həmin mitinqə getməməyi tövsiyə etdilər. Dedilər ki, ermənilər böyük bir təxribat planlaşdırıblar. Mən isə ölsəm də o mitinqə gedəcəyimi dedim. Ssenari belə idi ki, ermənilər çıxışlar edəcəklər, sonra hüquq-mühafizə orqanları geri çəkiləcək və ermənilər azərbaycanlılara hücum çəkəcəklər. Hardansa bu informasiya Heydər Əliyevə çatmışdı. O artıq vəzifəsindən uzaqlaşdırılmışdı. Bir də gördük ki, ulu öndər Puşkin adına meydana gəldi. Bu erməniləri çaşdırdı və planlaşdırılan təxribat baş tutmadı. Hamı dağılışıb getdi.

Moskvadan qayıtdıqdan sonra 1989-1990-cı illərdə Dəniz Neft-qaz Layihə İnstitutunda Fərman Hacıyevin yanında direktor müavini vəzifəsində çalışdım. Lakin bir müddət sonra “Heydər Əliyevin kadrı” olduğuma görə mənim işdən azad edilməm ilə bağlı Fərman Hacıyevə təzyiqlər olundu. “Fərman müəllim heç vaxt bu barədə mənə heç nə demirdi. Amma özüm vəziyyəti başa düşüb institutdan ayrılıb Moskvaya qayıtdım. SSRİ Xalq Təsərrüfatı Akademiyasından dedilər ki, biz öz məzunlarımızı küçəyə atmırıq, məndən işlə bağlı bir az vaxt istədilər. Bir müddət sonra Yuri Zaytsev zəng vurub bir neçə ölkədə (Anqola, Kuba, Nigeriya, Vyetnam və s.) iş təklifi etdi. Mən Vyetnamı seçdim.

1991-ci ildə Vyetnama gələndə burada böyük texniki çatışmazlıqlar var idi. Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmağı Vyetnamda işləyən azərbaycanlılara mənfi təsir göstərmişdi. Cəlal Məmmədovu “Vietsovpetro” şirkətinin baş direktoru vəzifəsindən uzaqlaşdırıb, yerinə erməni təyin etmişdilər. Mən ora gedəndə Vyetnamda çalışan 1200 azərbaycanlıdan cəmi 29 nəfər qalmışdı. Ümumi vəziyyət çox gərgin idi, platformaları bağlamaq istəyirdilər. Deyirdilər ki, rekonstruksiya işlərinə azı 1 il vaxt lazımdır. Mən mədən müdiri Vladimir Kalyujninin yanına getdim və Moskvadan göndərildiyimi bildirdim. Kalyujnin gülərək yanındakı adama “narahat olma, bu da gəldiyi kimi qayıdıb Bakıya gedəcək” dedi. Ona cavab verməmdim və 1 nömrəli platformaya getmək istədiyimi dedim. Mənə nə bələdçi, nə də tərcüməçi verdilər. Tək vertolyotla platformaya düşdüm. Orada 180-ə yaxın insan işləyirdi, mən platforma ilə yaxından tanış oldum. Vəziyyət həqiqətən acınacaqlı idi. Mən bir həftə ərzində burada qaldım, görülə biləcək işlər haqqında qeydlər etdim və sahilə göndərdim. 3 gün sonra ruslar bunu çap etdirib mənə göndərdilər və görüləcək işlərlə bağlı bütün məsuliyyəti daşıdığımı bildirdilər. Mən lazımi avadanlıq tələb edəndə dedilər ki, heç bir yardım olmayacaq, bəyənmirsən qayıt Bakıya! Daha bir neçə gün platformada qaldım. Bu müddət ərzində ruslar və ermənilər vyetnamlılara sübut etmək istəyirdilər ki, Bakıdan gələn mütəxəssis savadsızdır və dediyinin heç bir əsası yoxdur. Sonra “Vietsovpetro”nun baş direktorunun müavini ilə görüşdüm. O mənə quyular bağlanmadan, işlər dayanmadan bütün çatışmazlıqları aradan qaldıra biləcəyimi soruşdu. Mən ona müsbət cavab verdim. Bir ay ərzində bura Azərbaycandan xeyli sayda işçi qüvvəsi cəlb etdim. 1991-ci ilin avqustun 1-dən işə başladım və noyabrın ortalarında heç bir quyunu saxlamadan platformanı tam təhvil verdim. Sahilə çıxanda vyetnamlılar məni qəhrəman kimi qarşıladılar. Neft Sənayesinin fəxri fərmanı ilə təltif olundum. 1994-cü ilin oktyabr ayına kimi orada çalışdım. Sonra səhhətimlə əlaqədar Bakıya qayıtdım. Bir müddət Dəniz Neft-qaz Layihə İnstitutunda işlədim. 1998-ci ildə Vyetnam neft sənayesi naziri Bakıya səfərə gələndə 3 nəfər azərbaycanlını Vyetnam Neft Sənayesi Nazirliyinin qızıl medalı ilə təltif etdi. Ulu öndər Heydər Əliyev, akademik Azad Mirzəcanzadə və mən...

“1999-2003-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətində işlədim. Sonra müəyyən səbəblərə görə işdən ayrıldım. Vyetnamda işdən çıxmağımı eşidəndən sonra mənə yeni iş təklif etdilər. 2004-cü ildə mən 3-cü dəfə Vyetnama işləməyə getdim. “Vietsovpetro” şirkətində neft hasilatı üzrə böyük mühəndis və paralel olaraq şirkətin elmi işlər üzrə katibi kimi işə başladım. Çox mühüm işlər gördük. Yeri gəlmişkən mən o dövrdən şirkətlə ADNSU-nun əlaqələrinin qurulmasında iştirak etdim. 2010-cu ilin aprel ayında xidmətlərimə görə Vyetnam Prezidenti şəxsən özü məni “Xalqlar Dostluğu” ordeni ilə təltif etdi. Elə həmin ildə “Vyetnam Respublikasının fəxri neftçisi” adına layiq görüldüm. Mən 42 ölkədə Vyetnamı təmsil etmişəm. Həmçinin Vyetnam dövləti adından ADNSU-nun 10 nəfər müəlliminə Vyetnamın fəxri alimi adını təqdim etmişəm.

2007-ci ildə Rusiyanın sabiq Prezidenti Dmitri Medvedev Vyetnamda rəsmi səfərdə olanda Vyetnamın baş naziri “Bizim ölkəmizin neft sənayesinin inkişafında Heydər Əliyev başda olmaqla azərbaycanlı mütəxəssislərə borcluyuq və onlara minnətdarlığımızı bildiririk” demişdi və bu ifadə Rusiya televiziya kanallarında yayımlanmışdı”.

Vyetnam Neft Sənayesinin yaradılmasının 35 illiyi ilə əlaqədar məni ölkələrinə dəvət edərək “With the compliments of H.E. TRUONG TAN SANG Prezident of S.R.Vietnam” hədiyyəsini təqdim etdilər. Vunq Tau şəhərində 10 ildən artıq yaşadığım mikrorayona gəldim və gördüm ki, “Zarubejneftin” rəhbərliyi ilk növbədə Heydər Əliyevə və bütün Azərbaycan neftçilərinə aid bütün şəkilləri, momerial lövhələri çıxardıb. “Vyetsovpetro” rəhbərliyinə çox ciddi etirazımı bildirdim və dedim ki, siz heç vaxt vyetnamlıların qəlbindən Heydər Əliyevi silə bilməzsiniz. Hanoy şəhərinə gəlib iradlarımı Vyetnam Neft-Qaz Komitəsinin sədrinə bildirdim. O, bu işlə məşğul olacağını bildirdi. Tez bir zamanda Heydər Əliyev başda olmaqla azərbaycanlıların momerialının yaradılacağını bildirdilər.

Ulu öndər Heydər Əliyevlə görüşlərim həyat və fəaliyyətimdə böyük dönüşə səbəb olmuş, xatirəmdə dərin iz buraxmış, onun hər cümləsi bütün fəaliyyətimdə mənə böyük və güclü stimul vermişdir.

**Kərim KƏRİMOV,**
**təqaüdçü-neftçi,**
**“Xalqlar Dostluğu” ordenli.**



# Ölkəmizin gələcək inkişaf modeli üçün hüquqi baza yaratmış əbədiyaşar lider

**Ulu öndərimizin Azərbaycana ilk rəhbərlik etdiyi dövr respublika tarixinə siyasi, iqtisadi və mədəni yüksəliş və intibah dövrü kimi daxil olmaqla, xalqın milli mənlik şüurunun oyanışına, özünüdərk hisslərinin gücləndirilməsinə böyük stimul vermişdir. 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilən Heydər Əliyev özünün yüksək iş qabiliyyəti və dövlət idarəçilik keyfiyyətləri sayəsində o dövrdə hökm sürən sovet-sosialist ideologiyasının bütün sədlərini aşmaqla, mövcud olan total qadağalara və süni maneələrə baxmayaraq, Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkmiş, vətəndaşlardakı qorxunu aradan qaldırmış, insanları bütün sahələr üzrə böyük yüksəlişlərə ruhlandırmağı bacarmışdır.**

Heydər Əliyev kimi dahi bir şəxsiyyətin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycan Sovet İttifaqının tərkibində olan digər müttəfiq respublikaların sırasında ən sürətlə inkişaf edən ölkə olmuş, həmin illərdə Azərbaycanda yüzlərlə yeni sənaye kompleksləri, məişət, mədəniyyət və təhsil obyektləri inşa edilmiş, avtomobil və dəmir yolları çəkilmiş, sosial infrastruktur yaradılmış, kənd təsərrüfatının inkişafına xüsusi önəm və diqqət yetirilmişdir.

70-ci illərin ortalarında Azərbaycan kənd təsərrüfatı və sənaye məhsulları istehsalına görə keçmiş SSRİ-də ön yerlərdən birinə yüksəlmiş, milli gəlir artmış, ölkə böyük tikinti-quruculuq meydanına çevrilmiş, yeni-yeni istehsal müəssisələri fəaliyyətə başlamışdır. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bu günün özündə də milli iqtisadiyyatımızın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Ümummilli liderin təşkilatçılıq qabiliyyəti və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Bu nöqteyi-nəzərdən ulu öndərin Bakı Məişət Kondisionerləri Zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır.

Məhz həmin dövrdə yaradılmış iqtisadi potensial gələcəkdə Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında və fəaliyyət göstərməsində mühüm rol oynamış, Heydər Əliyevin bilavasitə rəhbərliyi altında respublikamızın iqtisadi qüdrətinin artırılması ilə yanaşı, elm və mədəniyyətin də böyük bir sıçrayışla inkişafı təmin edilmişdir. Ulu öndərin uzaqgörən və dərindən düşünülmüş siyasəti və qətiyyəti nəticəsində respublikamızda o dövrdə yeni təhsil və elm ocaqları yaradılmış, hərbi kadrların hazırlanması üçün Cəmşid Naxçıvanski adına Hərbi Məktəb açılmış, yüzlərlə azərbaycanlı gənc Moskva və SSRİ-nin digər iri şəhərlərində fəaliyyət göstərən nüfuzlu ali məktəblərə təhsillərini davam etdirmək üçün göndərilmişlər. Bu gün müstəqil Azərbaycanımızın hərbi sahədə ləyaqətlə xidmət edən və ali hərbi rütbələrə qədər yüksəlmiş onlarca zabitimiz həmin məktəbin məzunlarıdır. Müxtəlif dövlət strukturlarında yüksək vəzifə tutan şəxslərin bir çoxu məhz o illərdə birbaşa Heydər Əliyevin təşəbbüsü və göndərişi ilə Rusiyanın ən aparıcı ali məktəblərində təhsil almış şəxslərdir.

Heydər Əliyevin böyük iş təcrübəsi, zəngin dövlət idarəçilik qabiliyyətinin və tükənməz enerjisinin olması o dövrdə Sovet İttifaqı rəhbərliyinin nəzərindən yayınmamış və 1982-ci ildə ulu öndər SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyi tərkibində fəaliyyət göstərməsi üçün Moskva şəhərinə dəvət edilərək Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi məsul bir vəzifəyə təyin edilmişdir. Heydər Əliyev bu vəzifələrdə çalışdığı dövrdə də daim Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma vətəninin bütün dünya miqyasında tanınması üçün əlindən gələni əsirgəməmişdir. Lakin 1985-ci ildə hakimiyyətə gələn M.Qorbaçov və onun “komandası” özünün üzdəniraq “yenidənqurma” siyasəti adı altında böyük antiazərbaycan kampaniyasına başlamış və respublikamızın ərazi bütövlüyünün təcavüzkar Ermənistan tərəfindən pozulmasına rəvac vermişdir. 1987-ci ilin oktyabrında Heydər Əliyev M.Qorbaçovun müxtəlif xalq və millətlərin vahid dövlətdə birləşdiyi Sovet İttifaqında yeritdiyi səhv, antimilli və bəzən də məkrli siyasətinə etiraz əlaməti olaraq bütün vəzifələrindən istefa verərək mövcud hakimiyyətə müxalif mövqedə dayanmışdır.

1990-cı ilin qanlı Yanvar hadisələri vaxtı Moskvada yaşayan Heydər Əliyev vətəni və xalqının belə bir vəziyyətdə olmasına dözə bilmədi. 20 Yanvar qırğınından dərhal sonra ulu öndər ailəsi ilə birlikdə böyük təhlükə və təhdidlərə baxmayaraq, Moskva şəhərində yerləşən Azərbaycanın daimi Nümayəndəliyinə gələrək baş vermiş bu faciənin əsl mahiyyətini açıqlamış, başda M.Qorbaçov olmaqla Sovet İttifaqı rəhbərliyinin bu qanlı olayda günahkar olduğunu bütün dünyaya sərt şəkildə bəyan etmişdir. Vətəninin belə ağır günlərində Heydər Əliyev artıq Moskvada yaşaya bilməzdi. Ona görə də o, 20 iyul 1990-cı ildə həyatından artıq sevdiyi vətəni Azərbaycana - Bakıya döndü. Təəssüf ki, həmin vaxt respublikada hakimiyyətdə olan Moskva emissarları Azərbaycanın bu böyük oğlunun paytaxtda yaşamasına imkan yaratmadılar. Heydər Əliyev məcbur olub doğulduğu diyara - Naxçıvana getdi. Naxçıvan Muxtar Respublikasının əhalisi onu böyük ehtiram, məhəbbət və coşqu ilə qarşıladı. Bir müddətdən sonra isə Heydər Əliyev Muxtar Respublikanın Ali Məclisinin sədri vəzifəsinə seçildi. Bu vəzifədə işlədiyi dövrdə Heydər Əliyev bir neçə cəsarətli addım atdı.

Heydər Əliyevin tarixi missiyasının ən parlaq dövrü isə onun ikinci dəfə xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərlik etməsindən sonra başladı. O, Azərbaycan Demokratik Respublikasının 1918-ci ildə qəbul etdiyi üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiqlətdi, muxtar respublikanın adından “Sovet Sosialist” sözləri çıxarıldı, 20 Yanvar faciəsinə düzgün siyasi-hüquqi qiymət verildi və SSRİ Kommunist Partiyasının Naxçıvanda fəaliyyət göstərən bütün strukturları ləğv edildi. Həmin mürəkkəb və çətin illərdə məhz Heydər Əliyevin Naxçıvana rəhbərlik etməsi, onun böyük siyasi təcrübəsi və qətiyyəti muxtar respublikada ictimai-siyasi sabitliyi təmin etdi. Hamıya yaxşı məlumdur ki, 1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra bir çox problemlərlə üzləşmişdir. Bunların sırasında siyasi, iqtisadi, eləcə də sosial problemlər qabarıq şəkildə özünü büruzə verirdi. Bir tərəfdən də məlum Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu problemləri daha da kəskinləşdirir və dərinləşdirirdi. Həmin dövrlərdə Azərbaycana rəhbərlik edən şəxslərin təcrübəsizliyi, naşılığı və dövlət idarəçilik qabiliyyətlərinin olmaması səbəbindən isə bu problemlərin həll edilməsi qeyri-mümkün olmuşdur. Məhz 1988-ci ildən başlayaraq və 1993-cü ilin əvvəllərinə kimi Azərbaycanda yaranmış bu hərc-mərclik və xaos ona gətirib çıxarmışdı ki, dövlət strukturları və orqanları iflic vəziyyətinə düşmüş, xalqla iqtidar arasında böyük bir uçurum yaranmışdı. Uzun illər ərzində respublikada yaradılmış güclü iqtisadi potensial zəiflədilmiş, müəssisə və təşkilatlar tənəzzülə uğramış, vətəndaşların sosial vəziyyəti kəskin şəkildə ağırlaşmışdı.

1993-cü ilin may-iyun aylarında respublikaya rəhbərlik edən AXC-Müsavat cütlüyünün səriştəsizliyi nəticəsində isə hakimiyyət böhranı və hərc-mərclik son həddə çatmış, ölkə vətəndaş müharibəsi və müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qalmışdı. Məhz bu ağır günlərdə Azərbaycan xalqının yeganə ümidi Heydər Əliyevə idi. Ona görə də xalq bu dahi şəxsiyyətin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Xalqın təkidli və israrlı tələbləri ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan və 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə, sonradan isə yekdil səsvermə nəticəsində Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilən Heydər Əliyev çox qısa bir vaxtda Azərbaycanın real parçalanma və bir dövlət kimi dünya xəritəsindən silinmə təhlükəsinin qarşısını aldı.Ulu öndər ikinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycanda hüquqi dövlətin formalaşması və bu əsasda onun mühüm beynəlxalq qurumlarda layiqincə təmsil olunması üçün əvəzsiz xidmətlər göstərmişdir. Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında yeni Konstitusiya layihəsi hazırlanmış və 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmişdir. Konstitusiyada əks olunan müddəalar ölkəmizin gələcək inkişafının mühüm istiqamətlərini müəyyənləşdirmiş, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olmasını bəyan etmiş, insan hüquq və azadlıqlarının prioritetliyini ön plana çəkməklə ölkənin gələcək inkişaf modeli üçün hüquqi baza yaratmışdır. Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquq İslahat Komissiyası yaradılmışdır ki, həmin komissiya tərəfindən respublikada bir çox sahələri əhatə edən onlarca yeni qanun və məcəllə layihələri hazırlanaraq Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmişdir.

Azərbaycan Avropaya inteqrasiya istiqamətində də sürətli addımlar atmışdır. Belə ki, Prezident Heydər Əliyevin 8 iyun 1996-cı ildə “Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında” və 14 may 1999-cu il tarixli “Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haqqında” sərəncamları ölkəmizin Avropa Şurası ilə əlaqələrinin möhkəm əsaslar üzərində qurulmasını təmin etmiş və aparılan islahatların məntiqi nəticəsi kimi Azərbaycan Respublikası 17 yanvar 2001-ci ildə Avropa Şurası Parlament Assambleyası Nazirlər Komitəsinin qərarına əsasən Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul edilmişdir. Heç şübhəsiz ki, Azərbaycanın belə bir mötəbər beynəlxalq təşkilata üzv qəbul olunması dahi şəxsiyyət Heydər Əliyevin yürütdüyü uzaqgörən daxili və xarici siyasətin məntiqi nəticəsi idi.

Ümummilli liderimizin hüquqi dövlət quruculuğu sahəsində ən önəmli addımlarından biri də qanunun aliliyinin keşiyində dayanan hüquq-mühafizə orqanlarının işinin təkmilləşdirilməsi sahəsində qəbul etdiyi qərarlardır. Son illər ərzində qanunun aliliyinin təmin olunmasında, vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsinə xidmət etməklə dövlətçilik maraqlarından çıxış edən demokratik qurum kimi formalaşmasında, onun fəaliyyətinin təminatı üçün qanunvericilik və maddi-sosial bazasının yaradılmasında ulu öndərin xidmətləri əvəzolunmazdır. Heydər Əliyev siyasi kursu bu gün onun ideyalarına daim sadiq qalan möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Ulu öndərimizin: “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”-deyərək, dəyərləndirdiyi dövlət rəhbərimiz bu gün, həqiqətən də, xalqın etimadını doğrultmaqla həmin ümidləri reallığa çevirmişdir.

Dövlət başçısı tərəfindən həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət nəticəsində ölkəmizdə demokratik inkişaf və tərəqqi, sağlam vətəndaş cəmiyyətinin yaradılması, hüquqi dövlətin formalaşması prosesləri dönməz xarakter almış və görülmüş, eləcə də görüləcək bütün nəhəng və qlobal işlər ancaq bir məqsədə - Azərbaycanın dövlət müstəqilliyinin daha da gücləndirilməsinə xidmət etməklə, ulu öndərin təbirincə desək, onu, sözün əsl mənasında, əbədi və daimi etmişdir. Biz də hər birimiz ulu öndərə məhəbbətimizin əyani təzahürü olaraq möhtərəm Prezidentimizin ətrafında daha sıx birləşərək onun qarşıya qoyduğu bütün mühüm vəzifələrin yerinə yetirilməsində fəal iştirak etməli və Heydər Əliyevin şah əsəri olan demokratik, müasir və müstəqil Azərbaycanımızın xoşbəxt gələcəyi naminə səylə çalışmalıyıq.

**Şaiq MİRZƏYEV,**
**“Mirzayev and Partners Legal Firm” hüquq şirkətinin Baş direktoru,**
**hüquq elmləri üzrə fəlsəfə doktoru.**

# Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü

**Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin respublikamızda ilk dəfə siyasi rəhbərliyə başlamasından 50 il ötür. Onun dövlət başçılığının birinci dövrünün inkişaf salnaməsini gözlərimiz önündə canlandırsaq, istər-istəməz bu qənaəti bölüşməli olacağıq: Azərbaycanın müstəqilliyinin bərpasına aparan yol əslində 1969-cu ildə, yəni Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra başlanmışdır.**

Hər bir müstəqil dövlətin yaranmasına doğru uzanan mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərin mərkəzində lider və şəxsiyyət amili dayanır. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını elmi prinsiplər əsasında müəyyənləşdirmişdir. 1969-cu ildə Heydər Əliyevin dövlətə rəhbərliyinin ilk günlərindən respublikada böyük inkişafın başlandığı göz önündə idi. Belə ki, ötən əsrin 60-cı illərinin sonunda SSRİ-nin inzibati ərazi vahidlərindən biri olan Azərbaycanın istər sosial-iqtisadi, istərsə də ictimai-siyasi həyatında təşviş doğuran tam tənəzzül meyilləri müşahidə olunmaqda idi. Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı.

Heydər Əliyev respublikaya rəhbərliyinin ilk illərində qazandığı uğurlarla xalqını, dövlətini sevən rəhbər olduğunu sübuta yetirdi. Respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərdi. Fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq oldu. Respublikamızın qarşısında tamamilə yeni inkişaf səhifəsi açılır və bu, ölkə tarixinə qızıl hərflərlə yazılırdı. Qətiyyətlə deyə bilərik ki, ölkənin iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiya prosesi 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

O dövrdə Azərbaycanda müasir texnologiyaya əsaslanan neft sənayesi və neft emalı üzrə yeni-yeni müəssisə və zavodların yaradılması ölkəmizdə bu strateji məhsulun istehsalını və emalını nəzərəçarpacaq dərəcədə artırdı. Məhz o illərdə Xəzər dənizi hesabına Azərbaycanda neft sənayesinin gələcək inkişafını nəzərə alaraq Bakıda unikal bir zavod - Dərin Dəniz Özülləri Zavodu tikildi. Ümumiyyətlə, 1969-1982-ci illərdə respublikada müxtəlif təyinatlı 320-yə yaxın sənaye müəssisəsi tikilib istifadəyə verildi. Sənaye ilə yanaşı, ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən kənd təsərrüfatı da inkişaf etdirilirdi. Əkinçiliyin ayrı-ayrı sahələri - pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, bağçılıq, bostan və tərəvəz, eləcə də heyvandarlıq məhsullarının istehsalı 1982-ci ildə 1969-cu illə müqayisədə 2,5 dəfədən çox artdı. Respublikanın yol infrastrukturu, nəqliyyat sistemi yenidən quruldu, Yevlax-Balakən, Yevlax-Ağdam-Xankəndi dəmir yolu tikilib istifadəyə verildi. Bakıda yeni metro stansiyaları inşa olunurdu. Ölkənin sosial sahələri inkişaf etdirilir, əhalinin mənzilə olan tələbatının ödənilməsi istiqamətində geniş layihələr həyata keçirilirdi. 1971-1982-ci illərdə respublikada 18 milyon 293 min kvadratmetr mənzil sahəsi tikilib insanların istifadəsinə verildi. Respublika paytaxtı və digər şəhər və rayon mərkəzlərində müasir şəhərsalma normalarına uyğun yeni parklar, küçə və meydanlar salınır, milli memarlıq xüsusiyyətlərini özündə əks etdirən elm, mədəniyyət, səhiyyə obyektləri, sanatoriya və kurort kompleksləri yaradılırdı. İdmana geniş diqqət yetirilirdi. Dövlət idarələri üçün yeni və müasir tələblərə cavab verən yaraşıqlı inzibati binalar tikilirdi.

Əslində, Heydər Əliyev Azərbaycanın gələcəyi naminə siyasi fəaliyyətə hələ 1940-cı illərdən başlamışdı. XX yüzilliyin 20-30-cu illərində ermənilərin və qeyri millətlərin antiazərbaycan nümayəndələrinin yuva salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Respublika Dövlət Təhlükəsizlik Komitəsinin azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə hələ sovet rejiminin ən güclü çağında məhz Heydər Əliyev başlamışdır. Bu gün bütün azərbaycanlılar aydın dərk etməli və unutmamalıdır ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin mart soyqırımından sonra 1920-ci ilin sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə xalqımızın ən layiqli övladlarını sovet hakimiyyətinin "qurucuları" cildinə girərək qırdılar. KQB-də (Dövlət Təhlükəsizlik Komitəsində) və NKVD-də (Xalq Daxili İşlər Komissarlığında) əsas mövqeləri ələ keçirdilər. Erməni "çekistləri" uydurma "cinayət işləri" qaldıraraq 1920-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri, Əhməd Cavadları, Salman Mümtazları - Azərbaycan xalqının qaymaqlarını məhv etdilər. Bu baxımdan Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsini azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri vətən və xalq qarşısında adi xidmətlər deyildi! Başqa sözlə, Heydər Əliyev 1950-1960-cı illərdə qeyrətli və milli əhval-ruhiyyəli vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində, xalqımızın namuslu övladlarına qarşı gözlənilən növbəti təqiblərin qarşısını alırdı. Dahi rəhbər Azərbaycana birinci rəhbərliyi illərində xalqımızı, yurdumuzu müstəqil yaşamağa hazırladı...

Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı. Ulu öndər hakimiyyətə gəldikdən sonra respublikada milli ruhun inkişafına, milli mənlik şüurunun və milli qürurun yüksəlişinə xidmət edən möhtəşəm tədbirlər həyata keçirilmiş, Azərbaycan keçmiş SSRİ-nin qabaqcıl, inkişaf etmiş respublikalarından birinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev canlı məktəb, canlı klassika, tarixin canlı örnəyi idi. Dəmir məntiqi, parlaq zəkası, iti mühakimə qabiliyyəti, fitri istedad sayılacaq fenomenal yaddaşı, möhkəm xarakteri, ən çıxılmaz vəziyyətlərdən, mürəkkəb situasiyalardan çıxmaq bacarığı onu hamıdan fərqləndirirdi.

Böyük siyasətçi iqtisadiyyat və mədəniyyətin müxtəlif sahələrində öz vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı KP MK Siyasi Bürosu, MK plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək onun planlarının başında gəlirdi. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək sovet hökumətinin respublikamızın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərar qəbul etməsinə nail oldu. Nəticədə 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə bütün varlığı ərzində ən parlaq quruculuq dövrü kimi daxil oldu. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sayəsində Azərbaycan SSRİ-də qabaqcıl mövqelərə çıxdı.

Dahi dövlət xadimi Heydər Əliyev kommunist rejiminin hökmranlığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq, Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atdı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərinin ucaldılmasına nail oldu, repressiya qurbanı olmuş Hüseyn Cavidin nəşini vətənə qaytardı. Məhz bu dövrdə ilk dəfə olaraq Azərbaycanın görkəmli sənət adamlarının böyük bir qrupuna - şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktdır.

Bu dövrdə dahi rəhbər milli dilin inkişaf etdirilməsinə, dövlət müəssisələri də daxil olmaqla, ictimai-siyasi həyatda geniş istifadəsinə ciddi fikir verirdi.

Ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və mübarizəsi nəticəsində Azərbaycan dilinin dövlət dili olması haqqında müddəa Azərbaycanın 1978-ci il Konstitusiyasında birmənalı göstərildi. Konstitusiyanın 73-cü maddəsində "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" müddəası təsbit edildi. Ulu öndər Heydər Əliyev çox sonralar - 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında demişdi: "...Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq".

Məram bu idi ki, Azərbaycan xalqı zamanın ən böyük elm adamlarını, şair və yazıçılarını, rəssamlarını, musiqi xadimlərini, müəllimlərini, həkimlərini, mühəndislərini yetirməlidir. Azərbaycanlılar sırasından ən peşəkar hərbçilər çıxmalıdır, azərbaycanlı gənclər hərbçiliyi də gələcək sənət arzusuna çevirməlidirlər. Azərbaycan balaları o illərin imkanları çərçivəsində SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almalıdırlar. Azərbaycanın ictimai fikir tarixində böyük rolu olmuş insanların xatirəsi uca tutulmalıdır, milli-mənəvi dəyərlər göz bəbəyi kimi qorunmalıdır. Azərbaycan dili hər bir azərbaycanlının təfəkkür dili olmalıdır. Ən gözəl memarlıq abidələri Azərbaycanda ucaldılmalıdır. Ən xoş, ən rahat həyat Azərbaycanda olmalıdır. İnsanlar Azərbaycanda yaşamalarından zövq almalıdırlar, burada həyat yaşamaq üçün bir dəyərə çevrilməlidir. Heydər Əliyevin böyüklüyü onda idi ki, o, bütün bunların, sadəcə, kağızlarda, gurultulu manifestlərdə öz əksini tapmış utopik arzular deyil, gerçək olması, ən azı Azərbaycan boyda məkan hüdudunda reallığa çevrilməsi üçün gecə-gündüz çalışırdı və buna zərrə-zərrə nail olurdu. Beləliklə, 50 il bundan qabaq - 1969-cu il iyulun 14-dən Azərbaycan tarixinin Heydər Əliyev dövrü başlandı. Bu dövr sovet quruluşunun inzibati-amirlik sisteminin mahiyyətindən doğan bütün məhdudiyyətləri və çatışmazlıqları ilə bərabər, respublikanın sosial, iqtisadi və mədəni inkişafında əvvəllər görünməyən sıçrayışlarla, ən başlıcası isə xalqın mənəvi intibahı, oyanış proseslərinin dərinləşməsi, milli özünüdərkin kütləvi şəkildə oyanması ilə xarakterizə olunurdu. Bu nöqteyi-nəzərdən də ulu öndər Heydər Əliyev 40 illik siyasi fəaliyyəti dövründə üzləşdiyi bütün çətinlikləri, maneələri, problemləri, hətta uğursuzluqları mətinliklə dəf edən, məğlubiyyət sözünü



yaxına buraxmayan, inamlı qərarları ilə milyonlarla insanın taleyində müstəsna rol oynayan millət fədaisi, sərkərdə və lider kimi xatırlanır.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik də respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən birinə çevrilmişdir. Siyasi liderin gücü və qüdrəti onun elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, ilk növbədə qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq imkanları ilə ölçülür. Ulu öndər Heydər Əliyev təcrübəli dövlət xadimi və hakimiyyət ustadı olaraq Azərbaycan xalqının milli mentaliteti və dünyagörüşü ilə uzlaşan, reallığa adekvat olan milli inkişaf strategiyası seçmiş, iqtisadi modernləşməyə və siyasi liberallaşmaya xidmət edən çoxşaxəli islahatlar həyata keçirmişdir.

Ulu öndərin müəllifliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk milli Konstitusiya Azərbaycanın unitar, demokratik və dünyəvi dövlət imicini təsbit etmiş, vətəndaş cəmiyyətinə, insan hüquq və azadlıqlarının prioritetliyinə əsaslanan islahatların əsasına çevrilmişdir. Məhz bu mərhələdən hüquq-mühafizə, məhkəmə sistemində mütərəqqi islahatların həyata keçirilməsinə başlanmış, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Respublikada əfvetmə institutunun bərpası, ölüm hökmü üzərində moratoriumun qoyulması, 1998-ci ildə bu hökmün birdəfəlik ləğv olunması, insan hüquqları üzrə müvəkkil institutunun (ombudsman) yaradılması, bütün bunlar məhz Heydər Əliyevin qətiyyətli addımları sayəsində gerçəkliyə çevrilmişdir. Eyni zamanda, Heydər Əliyev respublikamızın Avratlantik məkana sürətli inteqrasiyasına çalışmış, bu məqsədlə müxtəlif demokratik institutlarla, o cümlədən ATƏT, Avropa Şurası, Avropa Birliyi və s. təşkilatlarla əməkdaşlıq əlaqələri qurulmuşdur. Heydər Əliyev öz siyasətçi qüdrəti, xarizmatik liderlik keyfiyyətləri, yüksək idarəçilik qabiliyyəti, diplomatik məharəti ilə çoxdan Azərbaycan hüdudlarını adlamış, böyük siyasətə gəldiyi gündən dünya miqyasını əhatə etmişdi. Ümummilli liderin böyüklüyü həm də onun bütün idarəçiliyi boyu azərbaycanlı olmasını unutmamasında, xalqın milli mənlik şüurunu, özünüdərk hissini, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyevin bütün ömrü elə Azərbaycan üçün yaşanmışdı - bu xariqüladə şəxsiyyət öz həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf etmişdi. Ulu öndər hər zaman və hər yerdə Azərbaycan üçün çalışır, həyatının ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanılmasında görürdü. "İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada, eyni zamanda, assimilyasiya prosesi də var. İnsanlar - mən azərbaycanlılar haqqında danışıram - gərək yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

Ulu öndərin böyük müdrikliklə söylədiyi bu fikirlər bir daha sübut edir ki, Azərbaycan xalqının çox böyük çətinliklər bahasına əldə etdiyi müstəqilliyi qoruyub saxlamaq əzmi və bu tarixi nailiyyətin daimiliyini təmin etmək arzusu onun gələcəyə doğru inamla addımlamasına və dünya birliyində, sözün həqiqi mənasında, öz layiqli yerini tutmasına imkan vermişdir. Şübhəsiz, indiyə qədər Azərbaycanın bir dövlət olaraq bütün sahələrdə qazandığı uğurların hər biri böyük ictimai-siyasi xadim, tarixi şəxsiyyət, dünya siyasətinin ən parlaq simalarından biri olan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin Azərbaycanda milli dövlətçilik ideologiyasının yaradılması, suveren dövlət təsisatlarının formalaşdırılması və xalqımızın tarixi yaddaşının bərpası istiqamətində göstərdiyi xidmətlər bütün dünya tərəfindən də təsdiq olunur.

**Məhəmməd MUSAYEV,**
**"ArchiCO Engineering Group" MMC-nin direktoru.**

**"Biz bütün millətlərə sübut etməliyik ki, azərbaycanlılar Xəzərin dibindən "qara qızıl" çıxardıqları kimi, tarlalarda bol məhsul yetişdirdikləri kimi, elmin, texnikanın ən mühüm nailiyyətlərinə yiyələndikləri kimi, həm də hərb sahəsində böyük istedada malikdirlər. Odur ki, yerli millətdən olan gəncləri, yeniyetmələri hərbi məktəblərə daxil olmaq və silahlı qüvvələrin zabit korpusunda xidmət üçün hazırlamaq ən ümdə vəzifəmizdir."**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri.**

# HEYDƏR ƏLİYEVİN ADINI DAŞIMAĞA LAYİQ GÖRÜLMÜŞ İLK MƏKAN

**Ümummilli liderimizin keçdiyi yola, hətta ötəri belə nəzər saldıqda görür və duyursan ki, Heydər Əliyev 1969-cu ildən bəri özü bir tarix yaradıb, cəfakeşliklə, qəhrəmanlıqla dolu, əhəmiyyətli, əzəmətli, həm də hər cəhətdən ibrətamiz bir tarix. Bu tarix içərisində öz ləyaqətini yüksəldən, güclü, qüvvətli xarakter bütövlüyünü biruzə verən Heydər Əliyev, eyni zamanda cəmiyyətin qanunauyğun inkişafına dair yeni ideyalara sahib olduğunu sübut etdi.**

Azərbaycan tarixinin son 50 ilə yaxın bir dövrü bilavasitə onun adı ilə bağlıdır. Bu mərhələdəki bütün uğurlarımızın, siyasi, iqtisadi, sosial-mədəni tərəqqimizin rəhbəri, ilhamvericisi, təminatçısı ulu öndərimiz olmuşdur.

1990-cı ilin sonlarında Naxçıvanda Muxtar Respublika Dövlət Müdafiə Komitəsinin yaradılması təşəbbüsünün irəli sürülməsi ordu quruculuğu sahəsində ilk addımların atılmasına başlandı. Ulu öndər Heydər Əliyev 1991-ci il sentyabrın 3-də MR Ali Məclisinin sədri seçildikdən sonra da burada yaratdığı yerli hərbi strukturlarla, incə taktika və güclü strategiya ilə muxtar respublikanı işğaldan qorudu.

1993-cü ilin 15 iyununda xalqın təkidli tələbilə Azərbaycan rəhbərliyinə qayıdan ümummilli lider həmin il noyabrın 2-də artıq respublikanın Prezidenti və Ali Baş Komandan kimi televiziya ilə xalqa müraciətində Milli Ordunun ayrı-ayrılıqda vuruşan dəstələrini vahid komandanlıq altında birləşməyə səsləyərək, postsovet məkanında qulluq edən milli zabitlərimizi - vaxtilə özünün yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələrini Vətənin bu ağır günlərində öz xalqı ilə bir yerdə olmağa dəvət etdi.



Azərbaycan ordusunun artıq irəliləmək iqtidarında olduğunu hiss edən Ermənistan xarici havadarlarının tövsiyəsilə 1994-cü il mayın 12-də bütün cəbhə boyu döyüşün dayandırılmasına və atəşkəs əldə olunmasına razılıq verdi. Həmin vaxtdan etibarən ölkəmizdə işğal olunmuş torpaqlarımızı azad etmək qüdrətində olacaq bir ordunun maddi-texniki bazasını möhkəmləndirmək, onun kadr potensialını daha da gücləndirmək məqsədilə iqtisadiyyatın dirçəldilməsi yolunda mühüm addımlar atıldı. Müdrik rəhbərliyin nəticəsində ölkədə xalqın orduya, ordunun isə dövlətə inamı artdı. Azərbaycan əsgərinə diqqət və qayğı, hörmət və ehtiram bərqərar edildi. Hərbi təhsilə önəm verilərək qəbulun sayı artırıldı, hərbi məktəblərin maddi-texniki bazası möhkəmləndirildi.

Bütün bunlarla yanaşı ulu öndər üç bir tərəfi Ermənistanla həmsərhəd olan doğma Naxçıvanı da unutmur, buradakı durum, xalqın vəziyyəti, xüsusən də hərbi hissələrdə döyüş hazırlığının səviyyəsi barədə muxtar respublika rəhbərliyindən müntəzəm məlumat əldə edirdi. Belə danışıqlardan birində MR Ali Məclisinin Sədri Vasif Talıbov artıq Naxçıvanda da hərbi təhsil müəssisəsinin yaradılması vaxtının çatdığını bildirərək, burada C.Naxçıvanski adına Hərbi Liseyin filialını açmaq barədə təşəbbüs irəli sürür. Belə bir filialın çoxdan açılmalı olduğunu vurğulayan Heydər Əliyev bu təşəbbüsü bəyənərək "Cəmişid Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialının açılması haqqında" 13 mart 1998-ci il tarixli 762 N-li Sərəncam imzalayır.

1999-cu ilin oktyabr ayında muxtar respublikanın 75 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn ölkə başçısı Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yeni tədris korpusunun təntənəli açılışında da iştirak etdi və geniş nitq söylədi: "Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır. Bunu düşünmək, bilmək və vaxtında təşkil etmək lazım idi...

Mən çox sevinirəm ki, qısa bir müddətdə belə gözəl bina hazırlanıb və hərbi liseyin filialına verilibdir... Mən bilirəm ki, Naxçıvan ağır vəziyyətdə yaşayır. Bilirəm ki, burada tikinti materialları yoxdur, başqa şeylər çatışmır.

...Hərbi liseyin burada filialının yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları - Kəngərlilər sülaləsindən Çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi. ...Mən özünü bu peşəyə həsr edənləri yüksək qiymətləndirirəm, onlara öz hörmət və ehtiramımı bildirirəm... Buradakı müəllim, zabit heyətinə müvəffəqiyyət arzu edirəm..."

2002-ci ilin iyun ayında - Milli Qurtuluş Günü muxtar respublikaya növbəti səfəri zamanı Heydər Əliyev ayın 17-də Hərbi Liseyin Naxçıvan filialını da ziyarət edərək qeyd etmişdir ki, zabit-müəllim heyəti qarşısında böyük və məsuliyyətli vəzifələr durur. Onlar təkcə öz peşələrilə bağlı deyil, başqa lazımlı sahələrdə də biliklərini artırmalı və bu bilikləri layiqli kadrların hazırlanmasına yönəltməlidirlər. O zaman ümummilli liderimiz kursantlara müraciətlə belə demişdi:

"Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın gələcəyini gənclərə etibar edirik. Əziz övladlarımız, sizə etibar edirik. Siz isə bu ümidlərimizi, arzularımızı doğrultmalısınız. İnanıram ki, doğruldacaqsınız."

2004-cü il fevralın 28-də Muxtar respublikanın bütün rəhbər işçiləri Heydər Əliyev adına Hərbi Liseyə gəldilər. Ali Məclisin Sədri Vasif Talıbov bu tarixi hadisə münasibətilə lisey kollektivini təbrik etdi. Kursantlara, müəllim-zabit heyətinə ümummilli liderin adına layiq oxumağı, işləməyi, Vətənə və xalqa xidmət etməyi tövsiyə etdi, bizlərə yeni uğurlar arzulayaraq üzərində Heydər Əliyevin general formasında təsviri olan xalçanı liseyimizə hədiyyə etdi. Daha sonra Ali Məclisin sədri liseyin 15 ən nümunəvi kursantının yaxasına "Heydər Əliyev" nişanını şəxsən taxdı. Bu mənzərəni seyr edərkən mən həm bir müəllim, həm də bir ana kimi xüsusi qürur hissi keçirirdim ki, mənim böyük oğlum da həmin kursantların sırasındadır (hazırda isə Azərbaycan Silahlı Qüvvələrinin zabiti kimi Vətənə xidmətini döyüş bölgəsində davam etdirir).

2004-cü ilin iyununda Heydər Əliyev adına Hərbi Liseyin ilk buraxılışı oldu. İki nəfər kursant-məzun yeni liseyin ilk fərqlənmə attestatını aldı. Həmin ilin yayından başlayaraq Hərbi Liseyin ərazisində yenidənqurma işlərinə başlanıldı. Tədris korpusu genişləndirildi, ikimərtəbəli qərargah binası, yeni yeməkxana, tibb məntəqəsi, daha bir neçə yardımçı bina inşa olundu, futbol meydançası salındı.

2005-ci il iyun ayının 15-də - Milli Qurtuluş Günündə Heydər Əliyevin adını daşıyan Hərbi Liseyin ərazisindəki yeni tikililərin, demək olar ki, yeni bir hərbi-tədris şəhərciyinin təntənəli açılış mərasimi oldu. Həmin gün məzunların buraxılışı da bu təntənəyə qarışdı. Bakıdan xeyli sayda fəxri qonaqların, generallar və digər yüksək rütbəli zabitlərin gəlişi bu mərasimi daha da rövnəqləndirdi.

Bu gözəl gündə Heydər Əliyevin "...illər keçəcək, biz yenidən burada görüşəcəyik" sözləri də gerçəkləşdi. Kursantların, müəllim və zabit heyətinin, həmçinin fəxri qonaqların ümummilli liderlə budəfəki görüşü onun hərbi liseyin həyətində - həmin anlarda açılışı olan tunc büstü ilə oldu. Qonaqlar həmçinin qərargah binasının birinci mərtəbəsində yaradılmış "Heydər Əliyev muzeyi"ni də ziyarət etdilər.

2005-ci ilin dekabrında möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev liseydə olarkən və muzeyi ziyarət etdikdən sonra həmin rəy kitabında öz ürək sözlərini belə ifadə etmişdir. "Əziz kursantlar, Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına həsr edilmişdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Heydər Əliyev siyasətini əbədi yaşatmalıyıq. Ölkəmizi onun qoyduğu yolla irəliyə aparmalıyıq. Əziz kursantlar, yaxşı oxuyun, hərb işini mükəmməl öyrənin, ölkəmizin inkişafında fəal iştirak edin".

Heydər Əliyev adına Hərbi Liseydə 2018-2019-cu dərs ilində 572 nəfər kursant təhsil alır ki, onlardan 100 nəfərdən artığı muxtar respublikadan kənar bölgələrdən qəbul olunmuşdur. İndi liseydə ən müasir avadanlıq və şəraitlə təmin olunmuş sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, 2 linqafon, tarix, coğrafiya kabinələri, hərbi kabinə və 12 interaktiv, iki kompüter kabinəsi, zəngin kitabxana vardır. Kitabxana fondu latın qrafikalı yeni nəşrlərlə, o cümlədən elmi, bədii, siyasi və tarixi əsərlərlə, xarici dillərdə danışıq kitabçaları və lüğətlərlə təmin olunmuşdur.

Hərbi liseyimizin 400-ə yaxın kursantı, 73 nəfərlik müəllim kollektivi, o cümlədən zabit heyəti muxtar respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edir. Kursantlarımız Azərbaycan və muxtar respublika üzrə keçirilən fənn olimpiadalarında fəal iştirak etmiş, onlardan 2 nəfəri qızıl, 1 nəfəri gümüş, 7 nəfəri bürünc medal qazanmışdır.

Ümumiyyətlə, liseyimizdə tədris prosesində kursantların vətənpərvərlik tərbiyəsinə üstünlük verilərək, onlara milli ruhun təlqin olunması, tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hisslərinin aşılanması daim diqqət mərkəzindədir. Həmçinin onların sağlamlığı və fiziki inkişafları da ciddi nəzarətdədir. Kursantlar idman zalında olan və yay meydançasındakı ən müasir avadanlıq və qurğulardan səmərəli istifadə edirlər. Bunun nəticəsidir ki, liseydaxili, şəhər, Əlahiddə Ümumqoşun Ordusu, muxtar respublika, ölkə və beynəlxalq səviyyəli idman yarışlarında kursantlarımız da yüksək göstəricilər əldə edərək uğurlar qazanırlar. Bundan başqa kursantların bədii yaradıcılığını inkişaf etdirmək məqsədilə liseydə təşkil olunmuş ədəbiyyat və bədii özfəaliyyət dərnəkləri də səmərəli fəaliyyət göstərir. Kursantlarımızın asudə vaxtlarının səmərəli təşkili məqsədilə tez-tez bilik yarışları, viktorinalar, fənn gecələri, kitab müzakirələri, şeir, inşa müsabiqələri keçirilir, muxtar respublikanın tarixi və görməli yerlərinə, muzeylərə ekskursiyalar, teatr tamaşalarına, kinofilmlərə baxışlar təşkil olunur.

Xatırladaq ki, ölkə başçısının xüsusi Sərəncamı ilə Heydər Əliyev adına Hərbi Lisey 2008-2009-cu dərs ilində "İlin ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülmüşdür. Qısa tarix ərzində liseyimizi 4 kursant qızıl, 4 kursant gümüş, 11 kursant isə fərqlənmə attestatı ilə bitirmişdir. Məzunlardan 64 nəfəri xarici dövlətlərdə, o cümlədən Rusiya Federasiyasında, Türkiyə və İtaliya respublikalarında təhsillərini davam etdirirlər. Liseyin 5 nəfər əməkdaşı xüsusi xidmətlərinə görə dövlətimiz tərəfindən müxtəlif fəxri adlar və təltiflərə layiq görülmüşdür.

Heydər Əliyev adına Hərbi Lisey artıq 15 ildir ki, müstəqil fəaliyyət göstərərək ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi Milli Ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda inamla irəliləyir. Liseyin 2001-2018-ci illər ərzində 2735 nəfər məzunu olmuşdur.

Azərbaycanın özü kimi əbədi olan Heydər Əliyev ideyaları yolumuzu nurlandıran sönməz məşəldir. Bu məşəlin hərarəti isə dünya durduqca bütün azərbaycanlıların ürəyini isidəcək, müstəqil Azərbaycanın inkişafına xidmət edəcək. "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır", — deyən ümummilli liderimiz Heydər Əliyevin adı və əməlləri daim yaşayacaq!

**Mehri QASIMOVA,**
**Heydər Əliyev adına Hərbi Liseyin tarix müəllimi.**

# NAFTALANDA SAHİBKAR MÜKAFATLANDIRILMIŞDIR

Naftalan Şəhər İcra Hakimiyyətində şəhərdə fəaliyyət göstərən sahibkarlar, mədəniyyət və turizm işçilərilə görüş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 27 may tarixli sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətləri olan "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018) yubiley medalı ilə təltif olunmuş Hüseynov İlqar Nəsrəddin oğlunun medalının təqdimetmə mərasimi keçirilib.



Naftalan Şəhər İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Arzu Məmmədov tədbirdə çıxış edərək bildirdi ki, bu gün praqmatik dövlət başçısı cənab İlham Əliyevin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması ilə bağlı böyük addımlar atıldığı göz qabağındadır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı ictimai-siyasi sabitlik, həyata keçirilən davamlı islahatlar nəticəsində yaradılan güclü iqtisadi potensial dünyada gedən çətin geosiyasi proseslər fonunda ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edir və regionların sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir. Ölkədə yaradılan əlverişli biznes mühiti və özəl sektora göstərilən diqqət sahibkarlığın inkişafı üçün geniş imkanlar açıb. Ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda demişdir ki, "Sahibkarlıqla bağlı siyasətimiz davam etdiriləcək. Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir - həm mənəvi dəstək, siyasi dəstək, həm də maddi dəstək. Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına bu qədər diqqət göstərir".

**Möhtərəm ölkə Prezidenti cənab İlham Əliyev Naftalan şəhərinə səfəri çərçivəsində ictimaiyyətlə görüşü zamanı Naftalanın inkişafının vacibliyini xüsusi qeyd edərək qarşıya belə bir vəzifə qoyaraq demişdir: "Naftalan haqqında çox eşitmişdim və burada mənim iki şey diqqətimi çəkdi. Birincisi, buranın gözəl təbiəti və şəhərin planlı şəkildə qurulması. Yəni buranın xiyabanları, yolları, küçələri, ağacları, parkları mənə çox böyük təsir göstərdi. Mən burada şəhərin elə bil ki, keçmiş gözəlliyini gördüm. Bir də demək istəyirəm ki, bugünkü gün Naftalanın yeni tarixinin başlanğıcıdır. Əminəm ki, bir neçə ildən sonra biz istədiyimizə nail olacağıq və Naftalan dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir".**

**Bəli, bu gün biz fəxarət hissi ilə deyə bilərik ki, bu arzular həyata keçirilmişdir.**

Çıxışının sonunda Arzu Məmmədov "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif olunmuş Hüseynov İlqar Nəsrəddin oğlunu təbrik edərək, medalı təqdim edib və ona fəaliyyətində uğurlar arzuladı.

Sonra, İlqar Hüseynov çıxış edərək belə bir ali mükafata layiq görüldüyü üçün ölkə Prezidenti cənab İlham Əliyevə öz dərin təşəkkürünü bildirdi.

**Məlumat üçün bildirək ki, Hüseynov İlqar Nəsrəddin oğlu Naftalan şəhərində ilk dəfə 2005-ci ildə turizm sektorunda özəl sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş, fəaliyyət sahəsini genişləndirərək Naftalan şəhər iqtisadiyyatının əsasını təşkil edən turizmin inkişafında xidmətlər göstərmişdir.**

Daha sonra tədbirdə Naftalan şəhərinin mədəniyyət və turizm sahəsində səmərəli fəaliyyətlərinə görə Mirzəyev Rasim Nəsrəddin oğlu, "Naftalan" mahnısının sözlərini yazan Aslanova Tahirə Tapdıq qızı və "Naftalan" mahnısını bəstələyən Əmirov Elnur Elşən oğlu Naftalan Şəhər İcra Hakimiyyətinin fəxri fərmanları ilə təltif ediliblər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Bacarıqlı nevroloq-həkim



Hər bir insanın öz dünyası, bu dünyasında doğulan istəkləri, arzuları var. Arzular, istəklər isə sonsuzdur. İnsanı yaşadan, təzadlı həyata bağlayan da məhz bunlardır. Kimi firavan, qayğısız yaşamağı, kimisi də xalqın taleyini düşünərək ona namusla xidmət etməyi tükənməyən həyat amalına çevirir. Belə insanlardan biri də özünün elmi, savadı, dünyagörüşü, qabiliyyəti sayəsində hərtərəfli inkişaf etməyi və formalaşmağı, yaxşıların yaxşısı olmağı düşünən və bu yolda yorulmadan fəaliyyət göstərən Babək Aslanovdur. O, 1993-cü ildə Nəriman Nərimanov adına Azərbaycan Tibb Universitetinin Müalicə-Profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirib, 1991-ci ildə internaturanı müvəffəqiyyətlə başa çatdırıb. Sənətə və seçdiyi peşəyə olan sevgisi, insanların sağlamlığının keşiyində dayanması həyatı boyu onun ən ümdə istəyi olmuşdur. Bu məqsədlə də o, bacarığını, peşəkarlığını artırmaq üçün təhsilini, biliyini, təcrübəsini daim artırmağa səy etmiş, tibb sahəsində yaranmış yenilikləri mənimsəməyə və sənətində tətbiq etməyə çalışmışdır.

Babək Aslanov 2000-ci ildə "Psixologiya" üzrə ixtisasartırma kursunda təhsilini davam etdirib. 2002-ci ildə Türkiyə Respublikasının Əskişəhər bölgəsində klinik təcrübə keçib. O, həkim işlədiyi vaxtdan cəbhə xəttində qızğın döyüşlərdə iştirak edənlərə yaxından kömək etmişdir.

Deyirlər, bütün uğurlara gedən yol bir məqsəddən, amaldan başlayır. Bunların birgəliyi insana yetişməsi, mükəmməl fəaliyyət göstərməsindən ötrü yeni meydan açır. Bu əqidədə olan insanlar imkansızlara, kimsəsizlərə arxa durmağı özlərinin vətəndaşlıq borcu bilirlər. Babək Aslanov da belə bir istəklə yaşamış, qəlbindən süzülən xeyirxahlıq, mərhəmət işığında fəaliyyət göstərmişdir. O, uzun illər qonşu Rusiya Federasiyasının müxtəlif şəhərlərində və Belarusda keçirilən elmi-nəzəri və praktik konfranslarda iştirak etmiş, yüksək fəallıq göstərmişdir. B.Aslanov bu gün ölkəmizdə təcrübəli bir nevroloq-həkim kimi tanınır.

Babək Aslanov öz ixtisasını yaxşı mənimsəməkdən ötrü daim çoxillik təcrübəsi olan həkimlərlə fikir mübadiləsi aparır, sənətinin sirlərinə vaqif olmağa, sənətdə biliyini, həyatda isə təcrübəsini artırmağa çalışır.

B.Aslanov 1993-2017-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində həkim-nevroloq kimi fəaliyyət göstərmişdir. Uzun müddət hərbi sistemdə fəallıq göstərən "Uçuş" komissiyasının sədri - nevroloq kimi də mühüm bir vəzifəni icra etmişdir. Bu sahədə göstərdiyi fəaliyyət və bacarığına görə "Usta nevroloq" adına layiq görülmüşdür. Onun öz sənətinə, peşəsinə bağlılığı, işinə yüksək tələbkarlıqla yanaşması, fəallığı, bacarığı və qabiliyyəti daim diqqəti cəlb etmişdir. B.Aslanov 2017-ci ildən Turan klinikasında nevroloq-həkim kimi fəaliyyət göstərir. Babək həkim "Loğmed" klinikasının nevroloq-həkimi kimi özünün bilik və bacarığı ilə xalqına xidmət edir.

Yaradıcı, fədakar insanın cəsarəti və iradəsi saf təbiəti, ciddi xarakteri ilə birləşəndə bu, əsl insanlığa çevrilir. Belə cəsarətə, iradəyə sahib olan yaxşılıq etməyi, humanist olmağı həyat amalına çevirən Babək Aslanov kimi həkimlərə, ziyalılara bu gün daha çox ehtiyacımız var. Xalqa layiqincə, vicdanla, təmənnasız xidmət etmək, sərhəddə Vətənin, torpağın keşiyində olan igid oğullarımızın sağlamlığının keşiyində dayanmaq nə qədər şərəflidir... Belə bir təəssübkeşlik, vətəndaşlıq borcu ilə fəaliyyət göstərən həkim-nevroloq Babək Aslanova uğurlar diləyirik.

**Ziyəddin MƏHƏRRƏMOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, filologiya elmləri doktoru.**

*Binəqədi rayonu*

# Vətənə sipər oğullar

Ölkə başçısının sərəncamı ilə iyulun 1-dən gənclərin növbəti hərbi xidmətə çağırışına başlanmışdır. Hər yerdə olduğu kimi, Bakının Binəqədi rayonunda da gənclərin ordu sıralarına çağırışı mütəşəkkil qaydada keçir, isti yay günlərində Vətənə sipər oğullar musiqi sədaları altında, coşğu ilə hərbi xidmətə yollanırlar. Əmək və müharibə veteranları, pedaqoji kollektivin üzvləri, valideynlər tədbirdə iştirak edir, onlar belə qənaətə gəlirlər ki, rayonun ümumtəhsil məktəblərində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə, xüsusilə hərbi idman oyunlarının yüksək səviyyədə təşkilinə maksimum səy göstərilir.

Vurğulamaq lazımdır ki, günün bütün vaxtı geniş əraziyə malik olan, 3-cü mədən qəsəbəsində yerləşən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Binəqədi rayon idarəsinin ərazisində təntənə, bayram əhval-ruhiyyəsi duyulur, hiss olunur ki, sabahın əsgərləri xidmət dövründə Vətənin ərazi bütövlüyünü ləyaqətlə qoruyaraq hər an işğal altında olan torpaqlarımızı azad etməyə hazır olacaqlar...

İkimərtəbəli, hər cür uyğunluğa malik olan idarənin inzibati binasının foyesində "Azərbaycanın Milli Qəhrəmanları", "Qarabağ igidləri", "Ordum varsa, yurdum var", "Şəhidlər intiqama çağırır" və digər plakat və şüarlar diqqəti cəlb edir.

Biz ordu sıralarına yola düşən gənclərlə söhbət etdik. Onlar 2016-cı ilin Aprel döyüşlərində qüdrətli Azərbaycan ordusunun düşmən ordusunu ağır məğlubiyyətə uğratmasından qürur hissi ilə söhbət açdılar. Əminliklə bildirdilər ki, çox tezliklə ərazilərimiz erməni işğalçılarından azad olunacaq, Şuşa, Kəlbəcər, Qubadlı, Laçın və digər qədim oğuz ellərində üçrəngli Azərbaycan Bayrağı dalğalanacaqdır.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində idarənin rəisi, polkovnik-leytenant Rövşən Əliyev çıxış edərək dedi:

- Siz sabahın əsgərlərisiniz, ordu sıralarına yollanırsınız. Sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, doğma yurdunuzu qoruyacaqsınız. Sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Müasir, mütəşəkkil ordunun yaradılması ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir. Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir.

Güclü iqtisadi potensial və güclü ordu Azərbaycanın bölgədə lider ölkə olmasını şərtləndirən əsas amillərdəndir.

Ordu quruculuğu ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: "Bu gün Azərbaycan, sözün əsl mənasında bölgədə ən yüksək mövqelərə malik olan bir ölkədir. Əlbəttə ki, bunu şərtləndirən müxtəlif amillər var. O cümlədən, iqtisadi potensial bu ordunun güclü olması. Biz tarixi yaxşı bilirik və uğur qazanmış ölkələrin təcrübəsini də öyrənirik. Güclü ordu güclü dövlət deməkdir. Bütün məqsədlərimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq və daha da möhkəm orduya malik olmalıyıq".



Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində Bayram Namazov valideynlər adından çıxış edərək vurğuladı ki, yaşlı nəslin nümayəndələri binəqədili gənclərlə fəxr edirlər. Onlar qüdrətli Azərbaycan ordusunda sidq-ürəklə qulluq edir, xüsusilə hərbi texnikanın sirlərinə mükəmməl yiyələnirlər. Əminliklə demək olar ki, çox tezliklə qüdrətli Azərbaycan ordusu ermənilərin müqavimətini qıracaq, cəsur, mətin oğullarımız işğal altında olan torpaqlarımızı azad edəcəklər.

Qəlbləri oxşayan bir yay günündə gənclərdən Nicat Mehralıyev, Mahmud İsmayılzadə, Tərlan Əhmədov, Anar Namazov və başqaları ordu sıralarına yollanırlar...

**Qədir ASLAN,**
**"Respublika".**

# Musiqi beşiyi, xanəndələr yurdu

**Vaxtilə ölkənin ən iri və varlı rayonlarından hesab olunan Ağdam işğala məruz qalsa da, ötən illər ərzində özünəxas olan ənənələri qoruyub saxlamış, öz keçmiş şöhrətinə doğru yenidən cəsarətlə, qətiyyətlə addım-addım yaxınlaşır. Ermənistan tərəfindən təcavüzə, işğala məruz qalan böyük bir el dövlətimizin qayğısı sayəsində yenidən ayaq üstə qalxır, yeni bir Ağdam qurmaq üçün daxili imkanlar və bütün qüvvələr bu xeyirxah işə səfərbər olunub.**

Ağdam həm də ziyalılar yurdu kimi tanınıb, musiqi beşiyi olub, adlı-sanlı əmək qəhrəmanları ilə şöhrət tapıb. Bu gün cəbhə bölgəsində yerləşən kəndlərdə və qoşunların təmas xəttinə yaxın ərazilərdəki məktəblərin hamısında düşmən tərəfindən atılan güllələrin səsi aydın eşidilir. Müəllimlər və şagirdlər belə çətin və təhlükəli bir şəraitdə çalışırlar.

Müəllim haqqında düşünəndə belə bir müdrik kəlam yada düşür: "Uca Tanrı məni göydən yerə endirdi, müəllim isə məni yerdən göyə qaldırdı". Xalqımızın ümummilli lideri Heydər Əliyevin "dünyada müəllim adından uca ad yoxdur" sözləri isə artıq dəyərli bir kəlam kimi yaddaşlara yazılıb.

Ağdam Musiqi Kollecinin direktor əvəzi, sənətşünaslıq namizədi, dosent Rafail Musayev həmkarları ilə birlikdə əl-ələ verərək gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi, savadlı, bilikli olması üçün necə deyərlər, ürəklərinin odunu, atəşini sərf edirlər. Hələ uşaq yaşlarından musiqinin ecazkar ruhu ilə nəfəs alan, Ağdam musiqi mühitində böyüyən Rafail Musayev ötən əsrdə çox məşhur olan "Qarabağ bülbülləri" ansamblında tar ifaçısı kimi ilk addımlarını atıb.

Həyatını musiqiyə həsr edən Rafail müəllim əvvəlcə Ü.Hacıbəyov adına Musiqi Texnikumunda tar ixtisası üzrə təhsil alır, sonra indiki Azərbaycan Musiqi Akademiyasının xalq çalğı alətləri şöbəsində ali təhsil alır. 1979-cu ildən Ağdam Musiqi Kollecində çalışır, elmi yaradıcılığını davam etdirir. Qarabağ xanəndəlik sənətinin elmi şəkildə araşdırılmasını uğurla başa çatdırır və "Qarabağ xanəndəlik sənəti" kitabını nəşr etdirir. O, həm də bir çox metodik tövsiyələrin müəllifidir. 2004-cü ildə sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülüb, hazırda dosentdir. Həcc ziyarətində olub. İki övladı var, oğlu Hüseyn hüquqşünasdır, qızı Leyla Moskva Tibb Universitetini qırmızı diplomla bitirib.

Həmsöhbətim Rafail Musayev Ağdam musiqi və ifaçılıq ənənələri haqqında ətraflı danışaraq deyir:

- O məşhur məsəldə deyildiyi kimi, burda bir uşağı küsdürəndə muğam üstündə ağlayıb. Ağdam həm də Qarabağın toy otağıydı, öz ənənəsi olan, öz dəst-xətti olan muğam ustaları Azərbaycanın mədəniyyətinə, incəsənətinə, muğam dünyasına sanballı töhfələr veriblər. Bu gün onların adı qürur və iftixar hissi ilə çəkilir, dövlət tərəfindən layiqincə qiymətləndirilir.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da tarixi töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb.

Quzanlı qəsəbəsində istifadəyə verilən muğam mərkəzi ağdamlılara dövlət tərəfindən göstərilən böyük diqqət və qayğının bariz nümunəsidir. Ağdam Muğam Mərkəzinin ərazisi 7782 kvadratmetrdir. İkimərtəbəli bina yüksək zövqlə müasir səviyyədə inşa olunub. Burada qrim, gözləmə, texniki, inzibati, yardımçı və digər otaqlar yaradılıb.

Mərkəzdə musiqi alətlərinin təmiri emalatxanası da fəaliyyət göstərəcək. Bu mərkəzin konsert zalı da müasirliyi ilə seçilir. Buradakı 328 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri keçirmək üçün hərtərəfli şərait var. Mərkəzdəki sinif otaqlarında muğamın sirlərinə yiyələnmək üçün bütün imkanlar mövcuddur. Muğam Mərkəzinin yerləşdiyi ərazi abadlaşdırılıb, 0,6 hektar sahədə istirahət parkı yaradılıb, yaşıllıq zolağı salınıb, gül kolları əkilib, işıqlandırma sistemi quraşdırılıb.



Ötən ilin noyabr ayının əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər zamanı Muğam Mərkəzinin açılışında iştirak ediblər. Bu diqqət və qayğı ağdamlıları daha da ruhlandırır, birlik və mütəşəkkillik nümayiş etdirirlər.

Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biri və bəlkə də ən başlıcasıdır.

Təhsil sahəsində əsası ümummilli liderimiz tərəfindən qoyulmuş islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə və yeni keyfiyyətdə uğurla davam etdirilir və bu sahədə atılan genişmiqyaslı addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə və nəhayət, Azərbaycan dövlətinin sürətli inkişafında əsaslı baza rolunu oynayır.

Ağdam Musiqi Kollecinin rəhbərliyi və müəllim heyəti bütün bunlardan ruhlanaraq, 2018/2019-cu tədris ilində təhsilin yüksək səviyyədə saxlanılmasına, tədrisin keyfiyyətinin daima yüksəldilməsinə, daxili nizam-intizam qaydalarının həmişə üstün tutulmasına çalışıb.

Kollecimizdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təyin etdiyi beş ixtisas - "İnstrumental ifaçılıq" (alətlər üzrə), "Xalq çalğı alətləri ifaçılığı" (alətləri üzrə), "Xanəndəlik", "Musiqi nəzəriyyəsi", "Xor dirijorluğu" ixtisasları üzrə tədris fəaliyyəti həyata keçirərək subbakalavr hazırlayır. Kollecdə bütün ixtisaslar üzrə 457 nəfər tələbə təhsil alır. Subbakalavrların yüksək səviyyədə təhsil almaları üçün kollecdə 75 nəfər müəllim heyəti çalışır.

Kollecin pedaqoji şurası bütün məsələləri müzakirə edərək qəbul edilən qərarların icrasını təmin edir. Pedaqoji şura ayrı-ayrı müəllimlərin fəaliyyətinə nəzarət edərək dərslərini mütəmadi qaydada müzakirə edib təklif və iradlarını bildirərək əldə olunmuş uğurları qiymətləndirir. Belə ki, açıq və qarşılıqlı dərslərin keçirilməsi, tələbə və müəllim heyətinin akademik konsertlərinin təşkili, metodiki işləmələrin müzakirəsi, tələbələrin müsabiqələrə hazırlıq işləri diqqət mərkəzində saxlanılır.

Kollec üzrə qabaqcıl müəllimlərimiz öz bilik və bacarığı, pedaqoji təcrübəsi, iş fəaliyyəti ilə daima tələbələrin mükəmməl təhsil almalarına, onların respublikamıza layiqli vətəndaş olmalarına, şəxsiyyət kimi yetişməsinə çalışırlar. Kollecimizin qabaqcıl müəllimlərindən Ülviyyə Əliyeva, Teyyub Vəliyev, Radə Zeynalova, Teyyub Əliyev, Kifayət Cəfərova, Kərrar Bayramov, Bəhruz Aslanov, Əli Məmmədov və başqalarının adlarını qeyd etmək olar.

Kollecimizdə fəaliyyət göstərən Fənn Birləşmə Komissiyaları da öz işlərini vaxtlı-vaxtında görərək, tədrisin yüksəldilməsi və daha da yaxşılaşdırılması üçün dayanmadan çalışırlar.

Onu da qeyd etmək istərdim ki, ötən illərlə müqayisədə 2018/2019-cu tədris ilinin II yarısından tələbələrin dərsə davamiyyəti xeyli yüksəlmişdir. Belə ki, dərsə gəlməyən tələbələrin valideynləri kollecə çağırılmış və tələbələr əyani şəkildə dərslərə cəlb olunmuşlar. Əgər ötən illərdə davamiyyət 70-75% təşkil edirdisə, indi isə bu göstərici 90-95% təşkil edir. 2018/2019-cu tədris ilində kolleci bitirəcək tələbələrin dövlət imtahanlarına hazırlığının yüksək səviyyədə olması üçün lazımi tədbirlərin görülməsi kollec rəhbərliyinin diqqət mərkəzindədir.

Kollecin nəzdində Bəhruz Aslanovun rəhbərliyi ilə "Mahur" xalq çalğı alətləri ansamblı, Əli Məmmədovun rəhbərliyi ilə Xalq Çalğı Alətləri orkestri, Mübariz Əliyevin rəhbərliyi ilə xor kollektivi fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyev Fondunun nəzdində Gənclər Təşkilatının dəstəyi ilə "Torpağın səsi" adlı layihəsi ilk olaraq Ağdam Musiqi Kollecindən start götürüb. Layihənin məqsədi istedadlı gənclərə dəstəkdən ibarətdir.

Aprel ayının 6-da on milyonuncu vətəndaşının anadan olmasına görə rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə Muğam Mərkəzində keçirilmiş tədbirdə kollecimizin kollektivi də yaxından iştirak etmiş, kollecin "Mahur" instrumental ansamblı gözəl musiqi proqramıyla tamaşaçıların zövqünü oxşamışdır. Tədbirdə iştirak edən Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov kollecimizin kollektivinə öz dəyərli tövsiyələrini vermiş, gələcək fəaliyyətlərində uğurlar diləmişdir.

May ayında kollecdə görkəmli bəstəkar Süleyman Ələsgərovun yaradıcılıq gecəsi keçirilmiş, müəllim və tələbələrinin ifasında bəstəkarın əsərləri səslənib.

Rayonumuz hərtərəfli inkişaf edir və çiçəklənir. Biz də rayonumuzun həm ictimai-mədəni, həm də təhsil sahəsində olan inkişafına öz töhfəmizi verir və dəyərli ənənələri davam etdirməyə, keçmiş şöhrəti bərpa etməyə çalışırıq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Bakı Xətai Sənət Mərkəzi

Artıq on ildir ki, Bakı Xətai Sənət Mərkəzi əhalinin, o cümlədən uşaq və yeniyetmələrin, gənclərin etik və estetik tərbiyəsinin formalaşması üçün müstəsna əhəmiyyətli fəaliyyətlə məşğul olur. Mərkəzin fəaliyyəti artıq respublikamızdan kənarda da özünü təsdiqləməkdir. Mərkəzin təşkilatçılığı ilə milli adət-ənənəmizin yeniyetmə, gənclər və uşaqlar arasında təbliği mühüm yer tutmuşdur. Belə ki, mərkəzin bir çox təşkilatlarla, o cümlədən Mədəniyyət və Təhsil nazirlikləri, Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyəti, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqı, Respublika Rəsm Qalereyası və sair təşkilatlarla əlbir işi onu göstərir ki, mərkəzin fəaliyyəti daha genişdir.



Bakı Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzovla söhbət edərkən o bildirdi ki, mərkəzin əsas məqsədi təkcə paytaxtda deyil, eyni zamanda bölgələrdəki uşaq və gənclərin, ümumilikdə əhalinin intellektual səviyyəsini yüksəltməkdir.

"Nəsimi ili" ilə əlaqədar Şamaxı rayonunda keçirilən tədbir bir daha onu göstərdi ki, regiondakı uşaqlar, gənclər və əhali mərkəzin təşkil etdiyi tədbirlərə böyük maraq göstərirlər.

Bundan başqa, Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlının vətənində Mədəniyyət Nazirliyi, rayon icra hakimiyyəti və regional mədəniyyət idarəsi ilə birlikdə keçirilən yazıçının 100 illiyinə həsr olunmuş tədbir də yüksək səviyyədə təşkil olunmuşdur.

Tədbirdə iştirak edən fırça ustaları, müəlliflər fəxri fərmanlar, diplomlar və fərdi hədiyyələrə, təşəkkürlərə layiq görülmüşlər.

Fərəhli haldır ki, mərkəzin təşkil etdiyi hər bir müsabiqə və sərgi dövri mətbuatda daim işıqlandırılır. Direktor Zahid Əvəzovun verdiyi məlumata görə, mərkəz 2017-ci ildə 12 sərgiyə, 10 uşaq rəsm müsabiqəsinə və fırça ustalarının 15 sərgisinə ev sahibliyi etmişdir. Fərəhli haldır ki, mərkəzin təşkil etdiyi tədbirlər ilbəil artır.

Mərkəzin təşkil etdiyi "Azadlıq aşiqləri günü" 20 Yanvar hadisələrinə həsr olunmuşdur.

Xocalı soyqırımına həsr olunmuş "Şəhid şəhər" adlı respublika uşaq rəsm müsabiqəsi çox böyük təntənə ilə keçirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, 2019-cu ildə də böyük nailiyyətlər əldə etmişdir. Mərkəzin tədbirlər planına nəzər saldıqda aydın olur ki, burada keçən il 15 adda sərgi təşkil olunmuşdur. "Qrafik 2019", "Şəhid şəhər", "Sumqayıtlı bahar qızları Bakıda", "Azərbaycanım" II Respublika uşaq rəsm festivalı, "Mənim rəsm dünyam" adlı sərgilər bu qəbildəndir.

Fərəhli haldır ki, Bakı Xətai Sənət Mərkəzi indi özünün intibah dövrünü yaşayır.





**Zabit CAVADOV,**
**"Respublika".**

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## ❑ ÇİNDƏN ABŞ-a SİLAH SATIŞI İLƏ BAĞLI XƏBƏRDARLIQ



Çin Tayvana silah satan Amerika şirkətlərinə qarşı sanksiya tətbiq etmək niyyətində olduğunu bəyan edib. “Sputnik” informasiya agentliyi xəbər verib ki, bəyanat Çin Xarici İşlər Nazirliyinin sözçüsü Genq Şuanq tərəfindən yayılıb.

“ABŞ-ın Tayvana silah satışı beynəlxalq hüququ və beynəlxalq münasibətləri tənzimləyən əsas normaları pozur. Bu hərəkət “Vahid Çin” prinsipini və Çinlə ABŞ arasında imzalanmış üç birgə kommunikeni kobud şəkildə pozur, eləcə də Çinin suverenliyini və milli təhlükəsizliyini sarsıdır. Milli maraqlarımızı qorumaq üçün Çin Tayvana silah satışında iştirak edən ABŞ müəssisələrinə qarşı sanksiyalar tətbiq edəcək”, - deyə bəyanatda bildirilir.

Qeyd edək ki, cümə günü Çinin Xarici İşlər naziri Vanq Yi məsələ ilə bağlı Vaşinqtonu xəbərdar edərək, onu “odla oynamamağa” çağırıb. Məlumata əsasən, Macarıstana səfəri zamanı nazir vurğulayıb ki, heç bir xarici qüvvə Çinin separatçı regionu ilə yenidən birləşməsinə mane ola bilməz.

Bir neçə gün öncə ABŞ Dövlət Departamenti 2,2 milyard dollar dəyərində silahın Tayvana satışına icazə verib. Satılacaq silahların sırasında “Stinger” daşınan zenit-raket komplekslərinin və “M1A2T Abrams” tanklarının olduğu bildirilir.

Pekin dərhal silah satışına dair razılaşmanı qınayıb və onun ləğvini tələb edib.

Verilən xəbərə görə, iyulun 11-də Nyu-Yorka səfər edən Tayvan administrasiyasının rəhbəri Tsay İnven Çinin qəzəbinə səbəb olub.

Xatırladaq ki, Çin Tayvanı separatçı bölgə sayır. İki tərəf arasında əlaqələr 1949-cu ildə pozulsa da, illər sonra onlar arasında iqtisadi və qeyri-rəsmi əlaqələr bərpa olunub. Vaşinqton “Vahid Çin” prinsipini tanısa da, Tayvanla qeyri-rəsmi əlaqələr saxlayır.

## ❑ HÖRMÜZ BOĞAZINDA GƏRGİNLİK ARTIR



Böyük Britaniya hökuməti Hörmüz boğazına ikinci gəmini göndərməyə dair qərar qəbul edib. Bu barədə “Sputnik” informasiya agentliyi “Sky News” telekanalına istinadən xəbər verib.

Qərara əsasən, “HMS Duncan” hərbi gəmisi Körfəzə yaxın günlərdə Qara Dənizdə NATO təlimlərində iştirakını bitirdikdən sonra yan alacaq. Hələlik Böyük Britaniyanın Müdafiə Nazirliyi məsələni şərh etmir.

Qeyd edək ki, bu, Böyük Britaniyanın Hörmüz boğazında “Montrose”dən sonra ikinci gəmisi olacaq.

Xatırladaq ki, ötən həftə İrana aid neft tankerinin Böyük Britaniyanın nəzarətində olan Cəbəllütariq sahillərində saxlanılmasından sonra London və Tehran arasında gərginlik artıb.

Daha sonra Böyük Britaniya Müdafiə Nazirliyi Hörmüz boğazında İrana aid gəmilərin Britaniya gəmisini saxlamağa çalışdığını bildirmişdi. İran tərəfi bu məlumatı təkzib etsə də, Cəbəllütariq sahillərində saxlanılan tankerin geri verilməyəcəyi təqdirdə Hörmüz boğazının Britaniya gəmiləri üçün təhlükəsiz olmayacağına dair açıqlamalar yaymışdı.

## ❑ “SARI JİLETLƏR” PARİSDƏ ETİRAZ AKSİYASI KEÇİRİB



“Sarı jiletlər” hərəkatının üzvləri iyulun 13-də Parisdə etiraz aksiyası keçiriblər. “Trend” agentliyinin məlumatına görə, bu barədə “BFM” telekanalı xəbər verib.

Məlumata əsasən, etiraz hərəkatının fəalları səhər saatlarında Stalinqrad müharibəsi meydanında toplaşıblar, ordan da böyük kütlə ilə Parisin küçələrinə yürüş ediblər.

Eyni zamanda, bildirilir ki, hadisə yerinə gələn polisin xüsusi təyinatlı qüvvələrinin dəstələri nümayişçiləri ərazidən uzaqlaşdırmağa çılaşıblar. Bundan sonra fəallar öz yürüşünü şəhərin müxtəlif küçələrində davam ediblər.

Etirazçılar respublika hakimiyyətindən referendum keçirməsini tələb ediblər. “Sarı jiletlər” 14 iyul - Fransa Milli bayramında Parisdə genişmiqyaslı etiraz aksiyası keçirəcəklərini bildiriblər.

Xatırladaq ki, Fransada avtomobil yanacağının bahalaşmasına qarşı “sarı jiletlilər” hərəkatının etiraz aksiyaları 2018-ci il noyabrın 17-dən başlayıb. Ötən müddət ərzində hərəkat iqtisadi məsələlərlə yanaşı, siyasi məzmunlu tələblər də irəli sürməyə başlayıb.

## ❑ UKRAYNALI GENERAL VLADİMİR ZELENSKİYƏ QARŞI ÇIXIB



Ukrayna Silahlı Qüvvələrinin desant birləşmələri komandanı Mixail Zabrodski bildirib ki, ölkə prezidenti Vladimir Zelenskinin qərarına baxmayaraq, Ukraynanın Müstəqillik Günü ilə bağlı hərbi parad keçiriləcək. Bu barədə “Sputnik” informasiya agentliyi “RİA Novosti”yə istinadən məlumat yayıb.

General Mixail Zabrodski vurğulayıb ki, sosial şəbəkələrdə hərbi parad keçirilməsi ilə bağlı çağırışları görüb. O deyib: “Parad - siyasət deyil. Orada iştirak etmək böyük şərəfdir. Parad bizim ölkəmizə və bizim hərbçilərimizə lazımdır və o keçiriləcək!”.

Qeyd olunur ki, M.Zabrodski Pyotr Poroşenkonun “Avropa Həmrəyliyi” partiyasından deputatlığa namizəddir.

Daha əvvəl Ukrayna Ali Radasının spikeri Andrey Parubiy ləğv olunmasına baxmayaraq, hərbçiləri Kiyevdə parad keçirməyə çağırıb.

Xatırladaq ki, Ukrayna prezidenti Vladimir Zelenski hər il avqustun 24-də ölkədə Müstəqillik Günü münasibətilə keçirilən hərbi paradı ləğv edib.

Vladimir Zelenski videomüraciətində deyib: “Adətən avqustun 24-də, Ukraynanın Müstəqillik günündə bizdə cah-cəlallı və heç də ucuz olmayan hərbi parad keçirilir. Mənə elə gəlir ki, bu il bu paradın əvəzinə bu pulları bizim qəhrəmanlara, hərbçilərə ayırsaq daha yaxşıdır və biz bütün hərbçilərimizə 300 milyon qriven ayırmağa qərar verdik”.

## ❑ GÜRCÜSTAN PREZİDENTİ: BÖLGƏDƏ SABİTLİYİ MÖHKƏMLƏNDİRMƏK MÜMKÜNDÜR



“Gürcüstan çox da sakit olmayan bölgədə sabit ölkədir”. “Report” agentliyinin verdiyi xəbərə görə, bu barədə Gürcüstan prezidenti Salome Zurabişvili “Deutsche Welle” nəşrinə müsahibəsində bildirib.

Salome Zurabişvili bölgədə çox sayda qeyri-sabitlik ocaqlarının olduğunu vurğulayaraq deyib: “Lakin heç nəyə baxmayaraq, biz sabitliyi qoruyub saxlamağa nail olmuşuq. Bizim böyük qonşularımız buna böyük hörmətlə yanaşmalıdırlar. Bu siqnalı bizim avropalı tərəfdaşlarımız regional məsələləri müzakirə edərkən Rusiyaya çatdırmalıdırlar”.

Eyni zamanda, Salome Zurabişvilinin sözlərinə görə, Rusiya Federasiyasının qonşuları ilə münasibətlərini qarşılıqlı sayğı və beynəlxalq hüquqa hörmət prinsipləri əsasında qurmalıdır. “Yalnız bu yolla bölgədə sabitliyi möhkəmləndirmək mümkündür”, - deyə prezident qeyd edib.

Dövlət başçısı Gürcüstan-Rusiya münasibətlərində son zamanlar yaranan gərginliyə də münasibət bildirib. O deyib: “Deeskalasiya ilə bağlı çağırışlar səslənib və biz deeskalasiyaya doğru gedirik. Bizi iqtisadi baxımdan çətin dövr gözləyir, belə ki, vəziyyət Gürcüstana təsirsiz ötüşməyəcək”.

## ❑ “FACEBOOK” 5 MİLYARD DOLLAR CƏRİMƏLƏNİB




ABŞ Federal Ticarət Komissiyası “Facebook”u külli miqdarda cərimələyib. “Sputnik” informasiya agentliyinin məlumatına görə, ABŞ Federal Ticarət Komissiyası “Facebook”u 5 milyard dollar cərimələyib.

Beləliklə, ABŞ-da 87 milyon seçicinin şəxsi məlumatlarını şirkətlərlə bölüşməkdə ittiham edilən “Facebook” tarixi bir cəzaya məhkum edilib.

Məlumata görə, Birləşmiş Ştatların Federal Ticarət Komissiyasının cəza qərarı səs çoxluğu ilə qəbul edilib. Cəzanın Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilməsi lazımdır.

Qeyd edək ki, “Facebook” seçicilərin məlumatlarını “Kembric Analytica” adlı şirkətlə bölüşərək 2016-cı ildə ABŞ-da keçirilən seçkilərdə saxtakarlıq etməkdə ittiham edilir.

Xatırladaq ki, “Facebook”un qurucusu Mark Zukerberq ittihamlarla bağlı Amerika Birləşmiş Ştatları Konqresində ifadə vermişdi. ■

# Zəhmətlə qazanılan uğurlar

**Həyatda elə insanlar var ki, onlar öz xeyirxah əməlləri, qurub-yaratmaq həvəsi ilə yaşayırlar. Bu xoş əməllərinin nəticəsində bu insanlar elə öz sağlıqlarında tarixə çevrilir və hamı tərəfindən hörmətlə qarşılanırlar. Belə insanlardan biri də Fərman Məmməd oğlu Rzayevdir. Uca dağların qoynunda dünyaya göz açan Fərman müəllim bu keşməkeşli yolları mərd-mərdanə addımlayır.**

Fərman Məmməd oğlu Rzayev 1944-cü il iyun ayının 1-də Gədəbəy rayonunun Kələman kəndində anadan olub. Orta məktəbi və hərbi xidməti başa vurduqdan sonra Gəncə Politexnik Texnikumuna daxil olub. Oranı bitirdikdən bir neçə il sonra Gəncə avtomobil məktəbinin Gədəbəy filialına rəhbərlik edib. Məktəb 2001-ci ildən Texniki idman klubu, 2005-ci ildən isə müstəqil avtomobil məktəbi kimi fəaliyyət göstərir. Hazırda isə bu sahədə respublikada tanınmış avtomobil məktəblərindən biridir.




Fərman müəllim ömrünün yarıdan çoxunu bu məktəbin inkişafına və müstəqil fəaliyyətinə sərf etmişdir. Məktəbin milli zövqlə bəzədilmiş binasına baxanda hər şey aydın olur. Dərs kabinetləri, Heydər Əliyev guşəsi, təlim üçün xüsusi meydança, avtomobillər üçün qarajlar və sairlər vardır. Texnikanın saz vəziyyətdə saxlanması məktəbdə təlim-tədrisin yüksək səviyyədə olmasından xəbər verir. Əbəs yerə bu məktəbə Gəncəbasar bölgəsində “Fərman müəllimin məktəbi” demirlər. Fərman müəllimin yubileyi münasibətilə məktəbdə geniş tədbir keçirilib. Tədbirdə respublikanın müxtəlif yerlərindən dəvət olunmuş qonaqlar, Gədəbəy Rayon İcra Hakimiyyətinin nümayəndələri, rayon fəalları və ağsaqqalar iştirak ediblər.

Tədbirdə çıxış edən Gədəbəy RİH-in başçısı İbrahim Mustafayev Fərman müəllimin əməyini yüksək qiymətləndirib və onu “Fəxri Fərman”la təltif edib. “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” MMC-nin rəhbərliyi adından Tofiq Salmanov yubilyarın həyat və fəaliyyətindən danışıb. O, Fərman Rzayevi təmsil etdiyi təşkilatın sədri Niyazi Zeynalovun adından təbrik edib. Eyni zamanda onun təyinatı əsasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimovun əmri ilə “Hərbi Vətənpərvərlik xidmətlərində fəal iştirak etdiyinə görə” Azərbaycan Respublikasının medalını ona təqdim edib. Digər çıxış edənlər MN-in əməkdaşı, şair Abdulla Qurbanı, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Gədəbəy rayon şöbəsinin rəisi Eldəniz Süleymanlı, Göygöl filialının direktoru Vaqif Bağırov yubilyarı təbrik ediblər.

Sonda Fərman müəllim çıxış edərək, SHXÇDX-nin rəis müavini general-mayor Şahvələd Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirib.

Tədbir incəsənət ustalarının çıxışları ilə başa çatıb.

**Nəriman ZEYNALLI,**
**Qəzənfər HƏSƏNOV.**

# Gədəbəy rayonunun ucqar kəndlərinə təbii qaz verildi

**Ölkə başçısı cənab İlham Əliyevin tapşırığına əsasən, “Azəriqaz” İstehsalat Birliyi tərəfindən 2019-cu ildə ucqar kəndlərin mavi yanacaqla təmin edilməsi məqsədilə hazırlanmış proqrama uyğun olaraq Gədəbəy rayonunun 8 yaşayış məntəqəsinin mərhələli şəkildə qazlaşdırılması da nəzərdə tutulmuşdur.**



Dağlıq relyef olduğundan texnikanın çətinliklə işlədiyi ərazilərdə, qaz borularının işçilər tərəfindən həmin ərazilərə əllə daşınması, hava şəraitinin qeyri-sabit, yağıntılı keçməsinə baxmayaraq, artıq görülən işlər nəticəsində cari ilin iyun ayında Gədəbəy rayonunun Yenikənd, Çobankənd və Köhnəqışlaq kəndləri mavi yanacaqla təmin olunub. Bu günlərdə isə daha üç yaşayış məntəqəsinə - Novoivanovka, Çiçəkli, həmçinin Şahdağ kəndlərinə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Bu məqsədlə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və “Azəriqaz” İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Bildirilmişdir ki, ümumilikdə 996 fərdi evdən ibarət kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 88 min 456 metr müxtəlif diametrli polad borularla daşıyıcı, paylayıcı və məhəlləd axili qaz xətləri çəkilmiş, mənzillərə sayğac, eləcə də fərdi tənzimləyici quraşdırılmışdır.

Hazırda rayonun Qurudərə və Sarıköynək kəndlərində qazlaşdırma işləri davam etdirilir. Tezliklə tikinti-quraşdırma işləri yekunlaşdırılacaq və əhaliyə təbii qazın verilməsi təmin olunacaq.

Rayonun ucqar kəndlərinə qaz xətlərinin çəkilişi yerli sakinlər tərəfindən böyük razılıqla qarşılanıb.

**“Azəriqaz” İB-nin İctimaiyyətlə əlaqələr şöbəsi.**

“YAZIÇI” dərgisinin böyük şair İmadəddin Nəsimiyə həsr etdiyi ayrıca buraxılışı bu ilin iyul ayında işıq üzü gördü. Dərginin üz qabığında Mikayıl Abdullayevin mütəfəkkir şairə həsr etdiyi yağlı boyayla çəkdiyi rəsmi və Nəsiminin “SÖZ” qəzəli verilmişdir. Dərginin ikinci səhifəsindən başlayaraq əlli beşinci səhifəyədək Salman Mümtaz, Rəsul Rza, Əkrəm Cəfər, İsa Hüseynov, yazıçı Anar, şair Qabil, Ramiz Qusarçaylı, professor R.Azadə, Yavuz Akpınar, Məmməd Aslan, Mikayıl Quluzadə, Yusif Seyidov, Samət Əlizadə, Əliyar Səfərli, Əlisa Nicat, Əli Rza Xələfli, Rafael Hüseynov, İsa Həbibbəyli, Səyyad Aran, Kamran Məmmədov,




Möhsün Nağıoğlu, Əhməd Qəşəmoğlu, Xanəmir Telmanoğlu, Ayişə Nəbi, Ramil Quliyev, Oktay Abdulla, Balayar Sadiq, Zümrüd Quluzadə, Hikmət Məlikli, Sədaqət Şıxıyeva, Zahid Sarıtorpağın dünyaca tanınmış, yaradıcılığı və şəxsiyyətilə bir kəsə bənzəməyən böyük Nəsimi haqqında bir-birinə bənzəməyən maraqlı yazıları əks olunmuşdur. Azərbaycan, eləcə də xarici rəssam və heykəltəraşların, xalça ustalarının Nəsimiyə həsr etdiyi əsərləri görüntü və məna baxımından dərgiyə ayrıca gözəllik vermişdir.

Son, əlli altıncı səhifədə Nəsiminin “Dünya duracaq yer deyil, ey can, səfər eylə” misrasıyla başlanan məşhur qəzəli, dərginin baş redaktoru Azər Abdullanın böyük şairə həsr etdiyi essesi və yağlı boyayla çəkdiyi rəsmi öz əksini tapmışdır.

**“Respublika”.**

# Goranboydakı silahlı insidentlə bağlı cinayət işi başlanıb, istintaq-əməliyyat qrupu yaradılıb

**İyulun 12-də gecə saat 23 radələrində Goranboy Rayon Polis Şöbəsinin Goran qəsəbəsi ərazisində xidmət aparan əməliyyat müvəkkili Vüsal Kərimov avtomobilin yolun kənarındakı maneəyə çırpılması ilə əlaqədar bir qrup şəxsin yol kənarında toplaşdıqlarını görüb səbəbini müəyyənləşdirmək məqsədilə onlara yaxınlaşıb.**

Respublika Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bu zaman həmin şəxslərlə polis əməkdaşı arasında mübahisə yaranmış və onlardan biri - Qarapirimli kənd sakini Lətif Əmrahov polis əməkdaşına qəfil zərbə endirərək onu yerə yıxıb. Asayiş keşikçisi üzərində olan xidməti silahdan havaya xəbərdarlıq atəşi açarkən güllə L.Əmrahovun əmisi oğlu Təbriz Əmrahova dəyib. Bundan sonra Təbrizin qardaşı Pərviz Əmrahov silahı polis əməkdaşının əlindən alaraq küpü ilə onun baş nahiyəsindən çoxsaylı zərbələr endirərək ağır xəsarət yetirib.

Xəsarət almış polis əməkdaşı və vətəndaş T.Əmrahov Gəncə Şəhər Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.

Faktla bağlı Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma), 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) və 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə cinayət işi başlanıb, polis və prokurorluq əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

İş üzrə zəruri ekspertizalar təyin edilib, hadisə yerinə baxış keçirilərək maddi sübutlar götürülüb və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun məsul əməkdaşları Goranboy rayonuna ezam olunublar.

Cinayət işi üzrə istintaqın davam etdirilməsi Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılıb və hazırda təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək istintaqa cəlb edilməsi, eləcə də iş üzrə əhəmiyyət kəsb edən sübutların əldə olunması istiqamətində zəruri və təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**AZƏRTAC**


## Elan

Kənd Təsərrüfatı Nazirliyi "Çəltik şitillərinin yetişdirilməsi üçün polietilen örtüklü istixananın layihələndirilməsi" üzrə kotirovka sorğusu elan edir.

Təkliflər 22 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur və təklif zərfləri 23 iyul 2019-cu il tarixində saat 14:00-da açılacaqdır.

Görüləcək işlərə dair "şərtlər toplusunu" əlaqələndirici şəxsə müraciət etməklə əldə etmək olar.

**Əlaqələndirici şəxs:** Kamil Şirinov
**Telefon:** 498-08-44 (daxili: 277)
**e-mail:** kamil.shirinov@agro.gov.az
**Ünvan:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 80

## Elan

Kənd Təsərrüfatı Nazirliyi "Tütün şitillərinin yetişdirilməsi üçün polietilen örtüklü istixananın layihələndirilməsi" üzrə kotirovka sorğusu elan edir.

Təkliflər 22 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur və təklif zərfləri 23 iyul 2019-cu il tarixində saat 14:00-da açılacaqdır.

Görüləcək işlərə dair "şərtlər toplusunu" əlaqələndirici şəxsə müraciət etməklə əldə etmək olar.

**Əlaqələndirici şəxs:** Kamil Şirinov
**Telefon:** 498-08-44 (daxili: 277)
**e-mail:** kamil.shirinov@agro.gov.az
**Ünvan:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 80

## Elan

Kənd Təsərrüfatı Nazirliyi "Elektrik cərəyanının sabitləşdirmə sisteminin satınalınması" üzrə kotirovka sorğusu elan edir.

Təkliflər 22 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur və təklif zərfləri 23 iyul 2019-cu il tarixində saat 14:00-da açılacaqdır.

Görüləcək işlərə dair "şərtlər toplusunu" əlaqələndirici şəxsə müraciət etməklə əldə etmək olar.

**Əlaqələndirici şəxs:** Kamil Şirinov
**Telefon:** 498-08-44 (daxili: 277)
**e-mail:** kamil.shirinov@agro.gov.az
**Ünvan:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 80

## Elan

Kənd Təsərrüfatı Nazirliyi "Sitrus meyvə tinglərinin yetişdirilməsi üçün duman qurğulu istixananın layihələndirilməsi" üzrə kotirovka sorğusu elan edir.

Təkliflər 22 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur və təklif zərfləri 23 iyul 2019-cu il tarixində saat 14:00-da açılacaqdır.

Görüləcək işlərə dair "şərtlər toplusunu" əlaqələndirici şəxsə müraciət etməklə əldə etmək olar.

**Əlaqələndirici şəxs:** Kamil Şirinov
**Telefon:** 498-08-44 (daxili: 277)
**e-mail:** kamil.shirinov@agro.gov.az
**Ünvan:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 80

Xaçmaz rayonu Çinartala kəndində yerləşən fərdi yaşayış evinə Pirəliyeva Teyfə Nüsrəddin qızının adına verilmiş 68 reyestr nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quba rayonu Amsar kənd sakini Sultanov Ərəstun Məmmədrəsul oğlu və onun ailə üzvlərinin adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN: 019 F, kod: 30307018) itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin və Meliorasiya və su təsərrüfatı tikintisi kafedrasının əməkdaşları Elza və Ofelya xanıma, bacıları NƏZAKƏT xanımın vaxtsız vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.**


Baş redaktor Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi Nəriman CAVADOV

● Çapa imzalanmışdır 13.07.2019